**Cild: 17 Say: 1** **ISSN 2218 – 0346**
**2013**

# AZƏRBAYCAN ARXEOLOGİYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş Redaktor**
Qüdrət İsmayılzadə

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev
Bəhlul İbrahimli

**Məsul katib**
Sevda Hüseynova
Günel Məmmədova
Mərziyə Əlizadə

**Redaksiya heyəti**
Alp Arslan (Türkiyə)
İsmayıl Hacıyev (Azərbaycan)
Bertyill Lyonnet (Fransa)
Rauf Munçayev (Rusiya)
Mehmet Ösdoğan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Otar Caparidze (Gürcüstan)
Övez Gündoğdiyev (Türkmənistan)
Maya Rəhimova (Azərbaycan)
Mehmet İşıqlı (Türkiyə)
Viktor Sarianidi (Rusiya)
Lauren Listven (ABŞ)
Andreas Şaxner (Almaniya)

**Volume: 17 Number: 1**
**2013**

**ISSN 2218-0346**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Editorial Assistants**
Roza Arazova
Tarikh Dostiyev
Bahlul Ibrahimli

**Deputy Editors**
Sevda Huseynova
Gunel Mammadova
Marziya Alizade

**Editorial Board**
Alp Arslan (Turkey)
İsmail Haciyev (Azerbaijan)
Bertille Lyonnet (France)
Rauf Munchayev (Russia)
Mehmet Ozdoghan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Otar Japaridzeh (Georgian)
Ovez Gundoghdiyev (Turkmenistan)
Maya Rahimova (Azerbaijan)
Mehmet Ishikli (Turkey)
Viktor Sarianidi (Russia)
Lauren Listvest (USA)
Andreas Schachner (Germany)

© COPYRIGHT©1999 BY KHAZAR UNIVERSITY PRESS
ALL RIGHTS RESERVED

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 11
Xəzər Universitəsi

Khazar University 11 Mehseti str.,
Baku AZ1096 Republic of
Azerbaijan

Üz qabığında: Yaqut qaşlı, qızıl örtülü diadema. Xınıslı, IV-V əsrlər.

Cover page depicts: Ruby signet, gold-covered diadem. Khinisly, IV-V century

На обложке: Позолоченная диадема с гранатовыми вставками.
Хыныслы, IV-V вв.

Telefon: (99412) 4217927
Faks: (99412) 4989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



*“Qafqaz Albaniyasının tarixi və taleyi ilə hamıdan çox azərbaycanlılar məşğul olmalıdırlar. Bu sahədə onlar dünya elmi qarşısında məsuliyyət daşıyırlar, dünya elminə borcludurlar.”*

Y.İ.Krupnov

*“Only Azebaijani people should be involved in the study of history and future development of Caucasian Albania. They assume great responsibility for the research in this field of world science.”*

Y.I.Krupnov

*«Историей и судьбой Кавказской Албании больше всех должны заниматься азербайджанские ученые. В этой области на них возлагается большая ответственность перед мировой наукой»*

Е.И.Крупнов

## İÇİNDƏKİLƏR

**Redaktor sözü** ........................................ 9
***Rauf Munçayev*** – Görkəmli Azərbaycan arxeoloqu C.Ə.Xəlilov (anadan olmasının 85 illiyinə) ........................................ 11
***Roza Arazova*** – Görkəmli Qafqazşünas alim C.Ə.Xəlilovun anadan olmasının 85 illiyinə ........................................ 18
***Əsədulla Cəfərov*** – Ustad müəllim, zəhmətkeş alim, qayğıkeş insan ....... 29
***Qoşqar Qoşqarlı*** – Görkəmli albanşünas alim ........................................ 33
***Tarix Dostiyev*** – Professor C.Ə.Xəlilov və onun Azərbaycanın orta əsr arxeoloji abidələrinin tədqiqində rolu ........................................ 42
***V.A. Kuznetsov –*** Yevgeni İqnatyeviç Krupnov ........................................ 49
***Cabbar Ə. Xəlilov*** – Albaniyanın qəbir abidələrinin dövrünün təyinində antik sancaqların rolu ........................................ 57
***Döyüş Musayev*** – Şimal-şərqi Azərbaycanda Kür-Araz mədəniyyətinin naxış motivləri ........................................ 68
***Təvəkkül Əliyev*** – Strabon “Ayniana”sının axtarışında ........................................ 77
***Gülanə Hüseynova*** – Qarabağın antik dövr alban yaşayış yerləri ............ 88
***Murtuzəli Hacıyev –*** Dərbənd yaşayış yerində yeni tədqiqatlar (qısa məlumat) ........................................ 101
***Mübariz C. Xəlilov*** – Qədim Samexiyanın (Kamehiyanın) kəşfi ............ 113
***Nailə Ciddi –*** Şamaxı şəhərinin Cümə məscidi haqqında ........................ 121

## CONTENTS

**From the editor-in-chief** .......................................................................**9**
***Rauf Munchaev*** – In commemoration of the 85th anniversary of the outstanding Azerbaijani archaeologist J.A.Khalilov.........................11
***Roza Arazova*** – Commemorating the 85th anniversary of the great scholar-archaeologist Jabbar Khalilov ...............................................18
***Asadulla Jafarov*** – The great teacher, diligent scholar, caring man .........29
***Goshqar Goshgarli*** – The famous albanist................................................33
***Tarikh Dostiyev*** – Professor Jabbar Khalilov and his role in the study of the medieval monuments in Azerbaijan ........................................42
***V.A.Kuznetsov –*** Yevgeniy Ignatyevich Krupnov....................................49
***Jabbar A. Khalilov*** – On the role of antique fibules in definig the chronology of funeral monuments of Caucasus Albania ....................57
***Doyush Musayev*** – Ornament motifs of Kura–Araxes culture of Northeast Azerbaijan.......................................................................68
***Tevekkul Aliyev*** – In search of Strabo's "Ayniany" .................................77
***Gulana Huseynova*** – Ancient Albanian monuments of Karabakh...........88
***Murtuzali Hajiyev*** – New research on the Derbent settlement (brief information) .........................................................................101
***Mubariz J. Khalilov*** – The discovery of Ancient Samekhia (Kamekhia)..........................................................................113
***Naila Jiddi*** – Juma mosque of Shamakhi ...............................................121

## СОДЕРЖАНИЕ


**От главного редактора** ........................................ **9**

***Рауф Мунчаев*** – Д.А.Халилов – выдающийся археолог Азербайджана (к 85-летию со дня рождения) ........ 11

***Роза Аразова*** – К 85-летию со дня рождения выдающегося учёного-кавказоведа Дж.А.Халилова ........ 18

***Асадулла Джафаров*** – Маститый педагог, трудолюбивый учёный, заботливый человек ........ 29

***Гошгар Гошгарлы*** – Выдающийся учёный-албановед ........ 33

***Тарих Достиев*** – Профессор Джаббар Халилов и его роль в изучении средневековых памятников Азербайджана ........ 42

***В.А.Кузнецов*** – Евгений Игнатьевич Крупнов ........ 49

***Джаббар А. Халилов*** – Роль античных фибул в установлении хронологии погребальных памятников Кавказской Албании ...... 57

***Деюш Мусаев*** – Мотивы орнамента Кура – Араксской культуры в северо - восточном Азербайджане ........ 68

***Тевеккюль Алиев*** – В поисках Страбоновской «Айнианы» ........ 77

***Гюлана Гусейнова*** **–** Античные Албанские поселения Карабаха ....... 88

***Муртузали Гаджиев*** **–** Новые исследования Дербентского поселения (краткая информация) ........ 101

***Мубариз Дж. Халилов*** – Открытие Древней Самехии (Камехии) ... 113

***Наиля Джидди*** – О Джума мечети г. Шемаха ........ 121

## Redaktordan

Həmkarımız, Azərbaycanın tanınmış arxeoloqu Cabbar Əsədulla oğlu Xəlilovun 85 yaşı tamam oldu. Təəssüf ki, istedadlı və zəhmətkeş alim ilk baxışda uzun görünən bu zaman kəsiyinin yalnız 66 ilini yaşadı. Elmi yaradıcılığının kamil bir vaxtında dünyasını dəyişdi.

Cabbar Əsədulla oğlu həyata göz açdığı gündən Şahdağın qarlı zirvəsini görmüşdü, sərin nəfəsindən pay almışdı. Bəlkə də elə buna görə o, gənclik illərindən zirvəyə qalxmaq, oradan ulularının sonsuz üfüqlərdə itən keşməkeşli, eyni zamanda şanlı yollarını axtarıb tapmağı, bu yolların əbədi yolçusu olmağı arzulamışdı. Bəlkə də, elə buna görə ulu tanrı ona nurla dolu bir yol, misilsiz mirasla dolu bir dünya bəxş etmişdi. Onun üzə çıxardığı hər bir tarixi yadigar nadirliyi və yüksək elmi dəyəri ilə seçilir.

Uzaq tunc dövrünün məskənləri - alınmaz qalaları və zəngin qəbir abidələri, qüdrətli Əhəmənilər sülaləsinin möhtəşəm saray xarabalıqları, Qafqaz Albaniyasının sirli şəhərləri arxeoloq Cabbar Əsədulla oğlunun qalın torpaq qatları altından üzə çıxardığı abidələrin cüzi bir hissəsidir. Onun tükənməz səy və bacarığı sayəsində Azərbaycan arxeologiyasının şövqü dünya arxeologiyasını min bir rəngə boyamışdır.

Xeyli vaxtdır ki, həmkarımız aramızda yoxdur. Lakin onun arxeologiyaya ərməğan etdiyi zəngin elmi irsi qalır. O qədər də böyük olmayan vaxt ərzində çətin çöl şəraitində, ağır və gərgin zəhmət əsasında yaradılan bu irs fədakar alimin sədaqətli tələbələri və Arxeologiya elminin sonsuz yollarında uğurla addımlayan oğlu Mübariz tərəfindən dərindən öyrənilir və daha da zənginləşdirilir.

Jurnalımızın bu sayı yeri həmişə görünən böyük alimə həsr olunmuşdur. Qoy onun ruhu şad olsun!



Cabbar Əsədulla oğlu Xəlilov
(1928-1994)

# Д.А.ХАЛИЛОВ – ВЫДАЮЩИЙСЯ АРХЕОЛОГ АЗЕРБАЙДЖАНА
## (к 85-летию со дня рождения)

**Рауф Мунчаев**
(Член-корр, АН России)

Трудно подумать, что уже 20 лет нет с нами незабвенного Джаббара Асадулла оглы Халилова. Он очень рано ушел из жизни, ему ведь было всего 66 лет! А какой же он глубокий след оставил в развитии науки своей страны и какой громадный вклад внес в изучение археологии Азербайджана и Кавказа в целом.

Крупный историк-археолог, человек большого таланта, целеустремленный исследователь, замечательный семьянин, всегда добродушный, преданный и надежный друг – таким запомнился мне этот прекрасный и незаурядный человек! Мне посчастливилось в течение более 40 лет знать его, дружить с ним и испытать на себе его дружелюбие, искренность, гостеприимство и другие добрые черты его благородной натуры.

Я познакомился с Джаббаром в самом начале 50-х годов прошлого столетия, когда он приехал в Москву и был принят в аспирантуру Института истории материальной культуры АН СССР (ИИМК) – ныне Институт археологии Российской академии наук РАН. В то время как-раз я был в этом институте аспирантом второго года обучения. Вместе с Дж. Халиловым в аспирантуру ИИМК АН СССР поступили тогда еще Идеал Нариманов и Теймур Бунятов и все они стали, как и я, учениками выдающегося советского археолога-кавказоведа Евгения Игнатьевича Крупнова. Нас всех сблизило еще то обстоятельство, что я родился и вырос в Азербайджане и вполне сносно владел азербайджанским языком.

Я горжусь тем, что дружил с Джаббаром и Идеалом и продолжаю тесно дружить с Теймуром. Эти замечательные люди блестяще окончили аспирантуру и выросли в известных и широко признанных ученых. Мне пришлось наблюдать, с каким усердием мои друзья и коллеги трудились в Москве, познавая основы науки. Е.И.Крупнов, как руководитель, был очень требователен к своим ученикам. Он стремился дать всем нам, кроме сугубо научной и надлежащую полевую под-

готовку. Всегда буду помнить, как самоотверженно мы трудились в летние сезоны в археологических экспедициях ИИМК АН СССР в различных регионах Советского Союза, в частности в самой крупной тогда в нашей стране Куйбышевской экспедиции и в экспедициях самого Е.И.Крупнова на Северном Кавказе. Показательно, что все аспиранты Евгения Игнатьевича в установленный срок подготовили и защитили свои диссертации.

Мои друзья происходили из разных регионов Азербайджана – Идеал из Карабаха, Теймур из Казаха и Джаббар из Кубы. Совсем не похожие друг на друга внешне и по характеру, они обладали хорошим чувством юмора и большим трудолюбием. Предложив им для подготовки диссертации определенные темы, Е.И.Крупнов сделал удачную попытку ликвидировать целое «белое пятно» на историко-археологической карте Азербайджана. Дж.Халилов, в частности, исследовал важную проблему, связанную с изучением памятников Западного Азербайджана эпохи поздней бронзы и раннего железа. Кстати, я всегда с какой-то особой теплотой вспоминаю, как мне пришлось выступать на Ученом Совете ИИМК АН СССР официальным оппонентом по диссертации Дж.Халилова, как, впрочем, и по диссертациям И.Нариманова и Т.Бунятова.

Возвратившись после завершения аспирантуры в Баку, Джаббар, как и его друзья и коллеги, начинает работать в Институте истории АН Азербайджана, из которого позже, в 1993 г., выделился Институт археологии и этнографии Национальной академии наук Азербайджана. В этом Институте Джаббар проработал до конца своей жизни, пройдя здесь путь от младшего научного сотрудника до многолетнего руководителя одного из важных подразделений Института. Самое же главное состоит в том, что в этом учреждении он вырос в крупного и широко известного в своей стране и за ее пределами исследователя археологии, древней и средневековой истории и культуры родного Азербайджана и всего Кавказа.

Я считаю, что мне крупно повезло в том смысле, что буквально с начала 50-х годов, когда я стал аспирантом, оказался тесно связанным с археологией Азербайджана. Мне почти ежегодно, начиная с 1950 г. приходилось бывать в Баку и некоторых районах Азербайджана и встречаться с азербайджанскими археологами, такими, как И.М.Джафарзаде, С.М.Казиев, Р.М.Ваидов, Г.М.Асланов, Г.И.Ионе, Н.В.Минке-

вич-Мустафаевой, О.Ш.Исмизаде, О.А.Абибуллаевым и др. Эти ученые представляют два поколения археологов послевоенного Азербайджана. Систематическое общение с ними мне не просто помогло, а способствовало общему росту и становлению специалиста в области кавказской археологии. Знакомство же и дружба с Идеалом Наримановым, Джаббаром Халиловым и Теймуром Бунятовым, скажу прямо, заметно ускорило это дело. Я имел возможность при этом не только наблюдать за развитием и становлением археологической науки в Азербайджане, а иногда и быть прямо сопричастным к этому. Я был, в частности, свидетелем того, как возвратившиеся после завершения аспирантуры в Баку мои друзья окунулись в работу и начали активно трудиться, как в исследовательском плане, так и полевом отношении, и вскоре стали ведущими в республике специалистами в области археологии. Первым долгом все они подготовили к изданию свои диссертации и опубликовали их. Так, в 1959 г. в Баку была издана несколько переработанная и дополненная кандидатская диссертация Дж.Халилова «Археологические памятники Западного Азербайджана в эпоху бронзы и начала железа. Бассейн рек Шамхорчай и Зегемчай».

Надо сказать, что Джаббар прошел хорошую полевую школу в Оренкалинской экспедиции у А.А.Иессена, обследовавшей широкомасштабно Мильско-Карабахскую степь, и получил разностороннюю подготовку у Е.И.Крупнова. Поэтому ему, как, впрочем, Идеалу и Теймуру, не составило особого труда активно включиться в изучение археологических памятников Азербайджана.

Помню, как я оказался в 1956 г. в Баку в те дни, когда Джаббар и Идеал провели удачно большие раскопки на поселении Сарытепе в Казахе. После завершения аспирантуры это были их первые крупные самостоятельные полевые работы. Они добыли там значительный и разнообразный археологический материал и мы с большим интересом знакомились с ним и оживленно обсуждали возникавшие при этом различные вопросы. Пожелание было одно – быстрее подготовить к изданию этот памятник. Кстати, Джаббар и Идеал не заставили долго ждать и полностью опубликовали результаты раскопок Сарытепе /(См.: «Раскопки на холме Сарытепе» // Материальная культура Азербайджана. Том IV, стр. 6-67, Баку, 1962).

Хочется особо сказать, что Дж.Халилов постоянно и упорно наращивал свой научный потенциал. Каждый шаг его научной деятель-

ности был отмечен печатными трудами. Его целеустремленность была поразительна. Он принимает решение сосредоточиться на изучении материальной культуры Кавказской Албании и целиком подчиняет свои интересы разработке этой большой и важной проблемы. Для ее решения, в частности, он в 1958 г. возглавил Шемахинскую экспедицию Института истории АН Азербайджана, обследовавшую в течение многих лет группу историко-археологических комплексов в Ширванской зоне. Наиболее плодотворными оказались исследования античного и раннесредневекового городища у г. Шемахи – одного из городов Кавказской Албании, отмеченного Клавдием Птолемеем (II в. н.э.) под названием Самехия (Камехия).

В начале 70-х годов мне посчастливилось вместе с И.Наримановым, Р.Ваидовым, З.Ямпольским и Т.Бунятовым побывать на раскопках Дж.Халилова в Шемахе. Мы ознакомились с полученными его экспедицией, в которой в тот год участвовал и Гатам Кесаманлы, значительными и разнообразными материалами, характеризующими материальную культуру Кавказской Албании, получили истинное удовольствие от радужного гостеприимства нашего друга Джаббара, переночевали у него в Шемахе и на следующий день отправились посмотреть раскопки Габалы. Не могу не отметить здесь, что нас также очень тепло встретили там Гара Ахмедов и Ильяс Бабаев и, несмотря на дождливую осеннюю погоду, сумели многое нам показать и рассказать. Память об этой поездке в Шемаху и Габалу, состоявшейся более 50 лет тому назад, сохранится у меня надолго. Такие памятные события не забываются никогда!

Целенаправленные изыскания и последовавшие за этим научные труды по археологии, истории и культуре Кавказской Албании выдвинули Дж.Халилова в число крупных и признанных специалистов в области албанистики. Ему принадлежит целый ряд важных исследований по Кавказской Албании. Среди них такой фундаментальный труд, как «Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.)», изданный в Баку в 1985 г. Эту работу он защитил в качестве докторской диссертации еще в 1974 г.

Известно, что Институт археологии АН СССР провел подготовку и осуществил публикацию беспрецедентного в мировой науке издания в виде 20-томной «Археологии СССР». Мне, как заместителю главного редактора этого обширного труда, пришлось заниматься вопросами его

структуры и подбора авторского коллектива. В частности, по моей рекомендации в число авторов тома «Древнейшие государства Кавказа и Средней Азии» был включен Дж.Халилов. Тогда мне нередко приходилось и в Москве и в Баку встречаться вместе с редактором тома Г.А.Кошеленко с Джаббаром и обсуждать подготавливаемые им разделы. Вспоминаю, с каким энтузиазмом и ответственностью он взялся за выполнение взятых на себя обязательств по данному тому. Все им было сделано на должном уровне и в срок. Этот том буквально украшают написанные Джаббаром разделы, такие, как Введение (с соавторами), Племена на территории Азербайджана в раннем железном веке, Кавказская Албания и Атропатена (Древнейшие государства Кавказа и Средней Азии. Археология СССР. Москва. Наука. 1985).

Не могу здесь не коснуться еще одной стороны научной деятельности Дж.Халилова. Она связана с его работой по выявлению и изучению археологических памятников в северо-восточной части Азербайджана, в Кубинско-Хачмасской зоне. Выходец из данного региона Азербайджана, Джаббар хорошо знал, насколько слабо в археологическом отношении изучена данная область. Решив ликвидировать это белое пятно на археологической карте Республики, он развертывает в Куба-Хачмасской зоне 1958 г. весьма результативные обследования, увенчавшиеся открытием здесь свыше 200 разновременных памятников, начиная с конца IV тыс. до н.э. до XVIII в. н.э. Отдельные из них стали в будущем объектами стационарных исследований его самого и большей степени его учеников. Поскольку в 60-70-е годы я занимался изучением культуры ранней бронзы Кавказа, Джаббар сразу же информировал меня об открытии им, в частности, поселения раннебронзового века Гяфлетепелери и при первой же возможности ознакомил меня со всеми добытыми материалами. Выяснилось, что этот памятник, как Серкертепе (ранее известное как Бориспольтепе) и другие, довольно близок по материалам известным поселениям эпохи ранней бронзы в прикаспийской части Дагестана. Таким образом было выявлено «недостающее звено» между комплексами куро-аракской культуры Азербайджана и Дагестана, т.е. Закавказья и Северного Кавказа. Результаты этих важных открытий, показавшие некоторое своеобразие куро-аракской культуры в северо-восточном Азербайджане, были использованы мной в своих трудах (см., например, Р.М.Мунчаев. Кавказ на заре бронзового века. Москва, 1975, с. 32 и др.; Куро-аракская культура //

Археология. Эпоха бронзы Кавказа и Средняя Азия. Ранняя и средняя бронза Кавказа. Москва, 1994, с. 8-57; 155).

Отмечу здесь же, что Джаббар был искренне влюблен в свой край – Куба-Хачмасский регион Азербайджана. Как часто и настойчиво он приглашал меня поехать с ним в его родное село Худжбала в Кубинском районе! И лишь весной 1985 г., когда в Баку была организована Всесоюзная археологическая сессия, мне удалось побывать у него в Худжбале и насладиться его гостеприимством. Вместе со мной он пригласил туда еще двух наших московских друзей и коллег – проф. Владислава Всеволодовича Кропоткина и ученого секретаря Института археологии РАН Кирилла Алексеевича Смирнова. Это была незабываемая поездка! Надо было видеть, как импозантно выглядел за рулем своего «Жигули» Джаббар! И сколько же интересного рассказал нам он о древностях и людях этого замечательного края Азербайджана. Гвоздем же программы стал устроенный им прием в ресторане на открытом воздухе, в лесу под скалой, совсем близко от границы с Дагестаном. После этого мы заехали в Худжбалу, осмотрели их дом и попили чаю. Я вспомнил там отца Джаббара, с которым познакомился еще в годы обучения в аспирантуре, когда он приезжал в Москву и привез нам великолепные яблоки из своего сада. Помню, как Джаббар указывал на какое-то дерево и говорил: «Посмотри, вот это есть та самая яблоня, с которой отец привез нам яблоки в Москву».

Такой был наш дорогой Джаббар! Веселый, жизнерадостный, полный энергии, всегда деловой и ответственный, Джаббар поражал своей работоспособностью. Он автор более 150 научных печатных трудов, опубликованных во многих академических и прочих изданиях Азербайджана, России и других стран. Он занимался не только чисто исследовательской работой и являлся, например, одним из ведущих в мире албановедов и крупным кавказоведом. Он проявил себя и как блестящий археолог-полевик. Вместе с тем нельзя забывать, как много сделал Дж.Халилов для подготовки молодых квалифицированных ученых в области археологии. Ведь он занимался и педагогической деятельностью, в частности, в Азербайджанском Государственном Университете.

Особая, неоценимая заслуга Дж. Халилова состоит еще в том, что он создал и бессменно с 1968 г. руководил в Академии наук Азербайджана Отделом полевых исследований, регламентировавшим все

археологические работы на территории Республики. Чрезвычайно важно и то, что он организовал при этом Отделе специальный Научный Архив, в котором собраны сейчас отчеты и полевая документация по археологическим раскопкам и разведкам в Азербайджане. Когда Джаббару предложили возглавить, можно сказать, «с нуля» Отдел полевых исследований, он приехал в Москву и советовался в Отделе полевых исследований Института археологии АН СССР и со мной, как лучше организовать работу этого подразделения в системе Академии наук Азербайджана.

Я знал хорошо семью Джаббара Халилова, бывал у него дома в Баку, как он гостил с женой у меня в Москве. Прекрасный отец, он воспитал четверых детей. Отрадно, что его сын – Мубариз – пошел по пути своего отца и трудится в Институте археологии и этнографии Национальной академии наук Азербайджана.

Все мы, его друзья и коллеги, всегда будем помнить все, что сделал Джаббар Халилов для развития науки в Азербайджане, и сожалеть о том, как рано ушел из жизни этот благородный человек и поистине выдающийся археолог-кавказовед Азербайджана.

# GÖRKƏMLİ QAFQAZŞÜNAS ALİM C.Ə.XƏLİLOVUN ANADAN OLMASININ 85 İLLİYİNƏ

**Roza Arazova**
(Xəzər Universiteti)
**rarazova@khazar.org**

**Açar sözlər: arxeoloq, C.Ə.Xəlilov, yubiley, tərcümeyi-hal.**

Bu il görkəmli Qafqazşünas alim, Azərbaycanın klassik arxeologiyası təmsilçilərindən biri, tarix elmləri doktoru, professor Cabbar Əsədulla oğlu Xəlilovun anadan olmasının 85 ili tamam olmuşdur.

C.Ə.Xəlilov 1928-ci il mayın 9-da Quba rayonunun Xucbala kəndində anadan olmuşdur. Ailənin böyük övladı olan C.Ə.Xəlilov II Dünya müharibəsinin davam etdiyi çətin illərdə ailəyə dayaq olmaq üçün 13 yaşından etibarən ilk əmək fəaliyyətinə başlamışdır. Təhsilini davam etdirməyin zəruriliyini yaxşı başa düşən C.Ə.Xəlilov 1944-1947-ci illərdə Quba Pedaqoji məktəbində oxumuş, 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakultəsinin əyani şöbəsində daxil olmuşdur. 1952-ci ildə universitetdə Arxeologiya ixtisası üzrə təhsilini başa çatdıran C.Ə.Xəlilov Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) müxbir üzvü Y.A.Paxomovun rəhbərliyi altında «Skif və sarmatlarda atların dəfni və onların Azərbaycanda təsadüf edilən meyidlə birlikdə at dəfn edilmiş qəbirlərlə müqayisəsi» mövzusunda diplom işini müdafiə etmişdir. Tələbəlik illərində ilk dəfə arxeoloji çöl-tədqiqat işlərinə cəlb olunan C.Ə.Xəlilov 1950-1951-ci illərdə Mingəçevir arxeoloji abidələr kompleksində aparılmış qazıntılarda, o cümlədən, katakomba və küp qəbirlərinin tədqiqində yaxından iştirak etmişdir. 1952-ci ildə Azərbaycan Tarixi Muzeyinin direktoru, görkəmli Azərbaycan arxeoloqu S.M.Qazıyev tərəfindən C.Ə.Xəlilovun həmin muzeyin Arxeoloji Texnologiya laboratoriyasına əvvəlcə preparator, daha sonra isə məhsuldar əməyi və təşkilatçılıq qabiliyyəti nəzərə alınmaqla hələ tələbə ikən müdir vəzifəsinə təyin edilməsi o dövrün elmi elitasının ona necə etibar etməsindən, bir tədqiqatçı kimi gələcəyinə inamından xəbər verirdi.

Gənc mütəxəssis 1952-ci ildə elmi pillələr üzrə təhsil almaq niyyətini atası Əsədulla kişiyə bildirdikdə əvvəlcə onun etirazı ilə qarşılaşır. II Dünya müharibəsi illərində Quba rayonunda sıravi milis işçisi kimi fəaliyyət göstərmiş Əsədulla kişi oğlunu gələcəkdə alim yox, inzibati orqanlarda



C.Ə.Xəlilov Gəncə arxeoloji materiallarını tədqiq edərkən

çalışan bir işçi qismində görürdü. Lakin oğlunun bu barədə mövqeyinin qətiliyi atanın güzəştə getməsi ilə nəticələnir. Elə həmin ildə C.Ə.Xəlilov aspiranturada Qafqaz arxeologiyası ixtisası üzrə əyani təhsil almaq üçün Moskva şəhərinə (Rusiya), SSRİ Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutuna (indiki Rusiya Elmlər Akademiyasının Arxeologiya İnstitutu) ezam edilir. Gənc arxeoloq aspirantura illərində həmin institutun bir sıra arxeoloji ekspedisiyalarının, o cümlədən, o zaman SSRİ-də ən iri – Kuybışev ekspedisiyasının, habelə elmi rəhbəri, Lenin mükafatı laureatı Y.İ.Krupnovun Şimali Qafqazda, Danimarka mənşəli görkəmli Rusiya arxeoloqu A.A.İessenin rəhbərliyi altında SSRİ və Azərbaycan Elmlər Akademiyalarının birgə ekspedisiyasının Örənqalada apardığı arxeoloji qazıntı işlərində fəal iştirak edərək çöl tədqiqatları təcrübəsi qazanaraq yüksək səviyyəli məktəb keçmişdir. «Вечерняя Москва» qəzetinin 20 dekabr 1955-ci il tarixli buraxılışında dərc olunmuş elan C.Ə.Xəlilovun artıq bir alim kimi formalaşdığının müjdəçisi idi. Həmin xəbərdə C.Ə.Xəlilovun «Qərbi Azərbaycanın son tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri» mövzusunda namizədlik dissertasiyasını müdafiə edəcəyi bidirilirdi. Uğurla keçən müdafiədə o zaman SSRİ Dövlət mükafatı laureatı, sonralar

isə akademik olan, Rusiya Dövlət Ermitajının direktoru, Sosialist Əməyi Qəhrəmanı B.B.Piotrovski, sonralar Rusiya Elmlər Akademiyasının direktoru vəzifəsində çalışmış, Rusiya Dövlət mükafatı laureatı, Rusiya Elmlər Akademiyasının müxbir üzvü R.M.Munçayev rəsmi opponentlər kimi çıxış etmişdilər. Sonralar bu dissertasiya əsasında C.Ə.Xəlilov o dövrdə nəşri planlaşdırılan çoxcildli «Azərbaycan arxeologiyası» əsərinin «Azərbaycan erkən dəmir dövründə» bölməsi üçün material hazırlamış, «Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri» monoqrafiyasını və «Azərbaycandan tapılmış tunc kəmərlər» adlı iri həcmli monoqrafik məqaləni elmi ictimaiyyətə təqdim etmişdir. Monoqrafiya 1959-cu ildə, məqalə 1962-ci ildə nəşr edilsə də, müvafiq bölmə üçün nəzərdə tutulmuş material o zaman çoxcildliyin çapının mümkünsüzlüyü ucbatından qorunub saxlanılmaqdan ötrü Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Arxivinə verilmişdir.

1956-cı ildə Azərbaycana qayıdan C.Ə.Xəlilov həmin ildə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda işləməyə başlamış, 1958-ci ildə Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyəti ona «Arxeologiya» ixtisası üzrə baş elmi işçi adını vermişdir. C.Ə.Xəlilov 1968-ci ildən ömrünün sonunadək əvvəlcə Tarix İnstitutunda, 1993-cü ildən etibarən isə Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda Çöl-tədqiqat işləri şöbəsinin müdiri və eyni zamanda şöbələrüstü qurum olan Çöl-tədqiqat işləri Bürosunun sədri vəzifələrində çalışaraq Azərbaycanın bütün ərazisində arxeoloji və etnoqrafik ekspedisiyaların təşkili və onların fəaliyyətinə nəzarət səlahiyyətlərinə malik olmuşdur.

1957-ci ildə ilk dəfə rəsmi qaydada müstəqil çöl tədqiqatlarına başlayan C.Ə.Xəlilov Azərbaycan Tarixi Muzeyinin arxeoloji ekspedisiyasına rəhbərlik edərək Xızı rayonu ərazisindəki müxtəlif arxeoloji abidələri öyrənməklə məşğul olmuşdur. Daha sonralar o, Azərbaycan Elmlər Akademiyasının Tarix, habelə Arxeologiya və Etnoqrafiya İnstitutlarının Şamaxı (1958-1975-ci illər), «Azərbaycanın arxeoloji abidələrinin külliyyatı» (1976-1980-ci illər), Gəncə-Qazax (1981-1982-ci illər), Quba-Xaçmaz (1983-1994-cü illər) kimi iri ekspedisiyalarına başçılıq etmişdir.

Hələ vaxtı ilə Bakı şəhərində arxeoloji qazıntılarda, Qazax rayonu ərazisindəki məşhur Sarıtəpə abidəsində antik dövrə aid möhtəşəm saray kompleksinin üzə çıxarılmasında yaxından iştirak etmiş C.Ə.Xəlilov qədim şəhər mədəniyyəti problemi üzrə axtarışlarını sonralar da davam etdirmişdir. Xınıslı şəhərgahında qədim yunan müəllifi Klavdiy Ptolemeyin (II əsr) adını

çəkdiyi Samexiya (Kamexiya) alban şəhəri qalıqlarının aşkar olunması və beləliklə, Şamaxı şəhərinin əsasının 2400 il bundan əvvəl qoyulması faktının müəyyən edilməsi C.Ə.Xəlilovun əsas elmi nailiyyətlərindən biridir. Xınıslıda aparılmış qazıntılar nəticəsində əldə edilmiş dəyərli tapıntılar hal-hazırda Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılır və nümayiş etdirilir. Muzeyin direktoru, prof. P.Ə.Əzizbəyovanın Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, prof. C.B.Quliyevə ünvanladığı 27 mart 1972-ci il tarixli məktubunda (qeydiyyat № 041/31) yazırdı: «Azərbaycan SSR EA Tarix institutu Çöl-Tədqiqat işləri bürosunun sədri, tarix elmləri namizədi Cabbar Əsədulla oğlu Xəlilov arxeoloji qazıntı işləri nəticəsində əldə etdiyi qızıl əşyaları xalqımızın qədim tarixinin qiymətli yadigarları kimi Azərbaycan tarixi Muzeyinə təqdim etmişdir. Həmin əşyalar Muzeyin qiymətli metallar fondunda qayğı ilə mühafizə ediləcəkdir. Azərbaycan tarixi Muzeyi xalqımızın nadir abidələrini tapıb - aşkara çıxaran, onu Muzeyə təqdim edən C.Ə.Xəlilova və institutun direktorluğuna öz dərin təşəkkürünü bildirir».

Çöl tədqiqatları ilə paralel olaraq C.Ə.Xəlilov «Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV - e. III əsrləri)» mövzusunda doktorluq dissertasiyası üzərində işləyir və 1974-cü ildə həmin dissertasiya işini müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülür. Dissertasiya işinin qonşu respublikalardan olan opponentləri (Gürcüstan EA müxbir üzvü A.M.Apakidze, Ermənistan EA müxbir üzvü B.N.Arakelyan) C.Ə.Xəlilovun bir sıra elmi müddəaları ilə yanaşı Albaniyanın öz mədəni-iqtisadi inkişaf səviyyəsinə görə Ermənistandan və Gürcüstandan geri qalmaması, Albaniyada vahid mədəniyyətin mövcudluğu kimi fikirləri ilə də razılaşmalı olmuşdular. Halbuki sovet tarixşünaslığında bu vaxta kimi hökm sürmüş iddiaya görə, Albaniyanın inkişaf səviyyəsi öz qonşularının səviyyəsindən aşağı olmuş, Albaniyada eyni zamanda 2 müxtəlif mədəniyyət formalaşmışdır. Sonralar A.M.Apakidze kimi akademik olmuş B.N.Arakelyan rəsmi opponent rəyində yazırdı: «Səmimi qəlbdən qeyd etməyi özümə borc bilirəm ki, dissertant C.Ə.Xəlilov tərəfindən böyük iş görülmüşdür və o, qarşısına qoyduğu məsələnin öhdəsindən əsasən gəlmişdir. O, tədqiqatların indiki mərhələsində qədim Albaniyanın arxeoloji cəhətdən öyrənilməsi üzrə nailiyyətləri toplayıb ümumiləşdirən həqiqətən dəyərli bir əsər yaratmışdır. ...Ümumiyyətlə, müzakirə edilən iş çoxillik böyük zəhmətin nəticəsi olub, qardaş Azərbaycan SSR-nin arxeoloji cəhətdən öyrənilməsinə əsaslı töhfədir». Bu elmi-tədqiqat əsərini yeni materiallarla zənginləşdirən alim onun əsasında 1985-ci ildə

eyni adlı kitabını nəşr etdirir. Dissertasiyanın müdafiəsindən və müvafiq monoqrafiyanın çap olunmasından xeyli vaxt keçməsinə baxmayaraq MDB məkanında fəaliyyət göstərən bəzi tarixçilər hələ də sakitləşə bilmir. 2003-cü ildə Moskvada nəşr olunan «Войны памяти. Мифы, идентичность и политика в Закавказье» kitabında V.A.Şnirelman yazır: «Azərbaycan arxeoloqu C.Ə.Xəlilov bütün yerli qədim qəbir abidələrinin müxtəlif mədəniyyətlərə mənsubluğu göz qabağında olduğu halda, onların, demək olar ki, hamısının albanlara aid olduğunu elan etməyə hazırdır». Bu fikrin arxeoloq olmayan bir tarixçi tərəfindən səsləndirilməsi onun əhəmiyyətini heçə endirir. C.Ə.Xəlilovun alban mədəniyyətinə yeni baxışları Sovet arxeologiyasında birmənalı olaraq qəbul edilmişdi. Bunu C.Ə.Xəlilovun Albaniya arxeologiyası haqqında yazdığı bölmənin «SSRİ arxeologiyası» çoxcildliyinin «Qafqaz və Orta Asiyanın ən qədim dövlətləri» cildinə salınması da təsdiq edirdi. C.Ə.Xəlilovun həmmüəllifi olduğu bu fundamental əsərin Lenin və SSRİ Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, görkəmli rus arxeoloqu, akademik B.A.Rıbakovun ümumi redaktorluğu altında 1985-ci ildə Moskvada nəşr edilməsi onun keyfiyyət göstəricilərindən biridir. Bu əsərdə Albaniya ilə yanaşı C.Ə.Xəlilov Azərbaycanda erkən dəmir dövrü və habelə Atropatena arxeologiyası bölmələrinin də müəllifidir.

Tarix elmləri doktoru elmi dərəcəsinə layiq görüldükdən sonra C.Ə.Xəlilov uğurlu çöl-tədqiqat işlərini davam etdirmiş, onların nəticələrini yeni nəşr olunmuş əsərlərində elmi ictimaiyyətin diqqətinə çatdırmışdır. 1976-1980-ci illərdə C.Ə.Xəlilovun rəhbərlik etdiyi ekspedisiya tərəfindən



C.Ə.Xəlilov başçılıq etdiyi Çöl tədqiqat işləri şöbəsinin əməkdaşları ilə birlikdə

Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonları ərazisində onlarla yeni arxeoloji abidələrin qeydə alınması müştərək yazılmış, Azərbaycanın arxeoloji abidələri külliyyatının I cildi olan «Şimal-Şərqi Azərbaycanın arxeoloji abidələri» kitabının 1991-ci ildə nəşri üçün bir zəmin yaratdı. Həmin dövrdə Azərbaycanın mühüm orta əsr şəhərlərindən biri olan Şabranda ilk geniş miqyaslı arxeoloji qazıntı işlərinin aparılması, Quba şəhəri tarixinin erkən dövrünü əks etdirən möhtəşəm Sandıqtəpə abidələr kompleksinin aşkar olunaraq tədqiqinə başlanılması əsas nailiyyətlər sırasına daxil idi. 1981-1982-ci illərdə orta əsr Gəncə şəhər yerində C.Ə.Xəlilovun apardığı arxeoloji qazıntı işləri Azərbaycanın qədim şəhər mədəniyyəti problemlərinin tədqiqi prosesində mühüm hadisələrdən biri idi. Bu tədqiqatların nəticələri xarici və yerli elmi nəşrlərdə özünə yer almış müxtəlif məqalələrdə əksini tapdı.

C.Ə.Xəlilovun elmi məruzələri müxtəlif beynəlxalq elmi məclislərdə maraqla qarşılanırdı. Bunların arasında 1976-cı ildə antikşünasların XIV Beynəlxalq «Eyrene» konfransında səsləndirilmiş «Şamaxı antik dövrdə» adlı məruzəsi diqqəti daha çox cəlb edən çıxışlarından biridir.

C.Ə.Xəlilovun elmi məruzələri müxtəlif beynəlxalq elmi məclislərdə maraqla qarşılanırdı. Bunların arasında 1976-cı ildə antikşünasların XIV Beynəlxalq «Eyrene» konfransında səsləndirilmiş «Şamaxı antik dövrdə» adlı məruzəsi diqqəti daha çox cəlb edən çıxışlarından biridir.

C.Ə.Xəlilov arxeoloji abidələrin qorunması və təbliği işlərinə də geniş yer ayırırdı. Bu baxımdan onun 1961-ci ildə çapdan çıxmış «Maddi-mədəniyyət abidələrinin əhəmiyyəti və mühafizəsi» kitabı çox faydalıdır. 1970-ci ildə C.Ə.Xəlilov Moskvada SSRİ Mədəniyyət Nazirliyinin Mədəniyyət abidələrinin mühafizəsi üzrə Elmi-metodiki şurasının birgə plenumunda çıxış edərək mərkəzi orqanların diqqətini Azərbaycan abidələrinə yönəltmiş, həmin ildə Moskvada SSRİ-nin ən böyük Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycanın arxeoloji maddi-mədəniyyət nümunələrinin nümayişini təşkil etmişdir. Azərbaycan SSR Ali Sovetinin 1973-cü ildə keçirilmiş 5-ci sessiyasında bir neçə arxeoloqla yanaşı C.Ə.Xəlilovun da elmi fəaliyyətinə yüksək qiymət verilərək xüsusi vurğulanmışdır ki, belə arxeoloqların zəhməti «mədəniyyət abidələrinin qorunması, bərpası və təbliği ilə əlaqədar olan bütün işlər üçün möhkəm elmi zəmin yaratmışdır».

C.Ə.Xəlilov alim, publisist olmaqla yanaşı həm də nüfuzlu pedaqoq idi. O 1968-ci ildən etibarən diplomunu daşıdığı Azərbaycan Dövlət Universitetində Arxeologiya fənnindən mühazirələr oxumuşdur. Bu tələbələr arasında hal-hazırda AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Daş döv-

rü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru Ə.Q.Cəfərov da var idi. C.Ə.Xəlilovun elmi rəhbərliyi altında gənc arxeoloq və etnoqraflar Azərbaycanla yanaşı Rusiya, Ukrayna, Belorus, Gürcüstan və Ermənistanda namizədlik dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmişlər (mərhum tarix elmləri doktorları A.B.Nuriyev, A.Ş.Orucov və başqaları). Məhsuldar pedaqoji fəaliyyətini nəzərə alan SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyası 1982-ci ildə C.Ə.Xəlilova Arxeologiya ixtisası üzrə professor elmi adını vermişdir. C.Ə.Xəlilov bu adı qazanmış ilk azərbaycanlı arxeoloqdur.



C.Ə.Xəlilov Xınıslı qazıntılarında

Görkəmli alim 29 mart 1994-cü il tarixində 66 yaşında bu dünyadan köçmüşdür, lakin onun əsərləri çap olunmaqda davam edir. 2003-cü ildə Moskvada (Rusiya) onun həmmüəllifi olduğu «Krım, Şimal-Şərqi Qara dəniz yanı və Zaqafqaziya orta əsrlər dövründə (IV-XIII əsrlər)» adlı iri həcmli kitab, 2008-ci ildə yenə də Moskvada «Quba rayonunun Rustov kəndi yaxınlığındakı məzarlıq və onun Dağıstan və Azərbaycan mədəni əlaqələrində yeri» adlı əsəri nəşr edilmişdir. C.Ə.Xəlilov AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən çapa hazırlanan 6 cilddən ibarət olacaq «Azərbaycan arxeologiyası» əsərinin «Azərbaycanın antik arxeologiyası» cildinin əsas müəlliflərindən biridir.

Gələcəkdə hələlik çap olunmamış digər əsərləri nəşr edildikcə elmi yaradıcılığının həcminin найдены фрагменты керамической посуды (рис. 5Б, 1-20), среди которой ömür müddətini üstələdiyi C.Ə.Xəlilov həmişə

xatırlanacaq və elmi fəaliyyətinin zənginliyi heç vaxt onun unudulmasına imkan verməyəcəkdir.

## C.Ə.XƏLİLOV HAQQINDA NƏŞR EDİLMİŞ ƏSAS ƏSƏRLƏR

1. Arazova Roza. Alpan çayı sahilindən olan görkəmli albanşünas // Azərbaycan arxeologiyası, № 1-4, 2001, s. 113-119.
2. Cabbar Əsədulla oğlu Xəlilovun xatirəsinə / Görkəmli Azərbaycan arxeoloqu S.M.Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları. Bakı: Elm, 1994, s. 221-222.
3. Cabbar Xəlilov / Quba və qubalılar. Məlumat-biblioqrafiya toplusu. Bakı: Təhsil, 2012, s. 194-196.
4. C.Ə.Xəlilov (1928-1994) /Arxeoloji-etnoqrafik məcmuə. Bakı, 1995, s.42.
5. Əhmədov Qara. Görkəmli arxeoloq alim // «Şəfəq» qəzeti, 4 avqust 1998.
6. Əhmədov Qara, Nərimanov İdeal. Arxeologiya üzrə ilk azərbaycanlı professor // «Şəfəq» qəzeti, 15 aprel 2003.
7. Ахмедов Гара. 70-летие со дня рождения Джаббара Асадулла оглу Халилова // История и её проблемы, № 1, 1998, с. 272-276.
8. Бунятов Т.А., Мунчаев Р.М., Нариманов И.Г. Памяти Джаббара Асадулла оглы Халилова (1928-1994) // Российская археология, № 2, 1996, с. 248-249.
9. Гаджиев М.С., Давудов О.М. Профессор Дж.А.Халилов (1928-1994) - видный археолог-кавказовед (к 75-летию со дня рождения) // Вестник Дагестанского Научного Центра, № 15, 2003, с. 148-151.

## C.Ə.XƏLİLOVUN NƏŞR OLUNMUŞ ƏSAS ELMİ ƏSƏRLƏRİNİN SİYAHISI

### Kitablar

1. Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı, 1959.
2. Maddi-mədəniyyət abidələrinin əhəmiyyəti və mühafizəsi. Bakı, 1961.
3. Шемахинское серебряное блюдо. Баку, 1985.
4. Археология СССР. Древнейшие государства Кавказа и Средней Азии. Москва, 1985 (в соавторстве).
5. Материальная культура Кавказской Албании (IV в. до н.э. - III в.н.э.). Баку, 1985.
6. Археологические памятники Северо-Восточного Азербайджана. Баку, 1991 (в соавторстве).
7. Крым, Северо-Восточное Причерноморье и Закавказье в эпоху средневековья (IV-XIII века). Москва, 2003 (в соавторстве).

**Monoqrafik məqalələr**

1. Sarıtəpə arxeoloji qazıntıları (1956-cı il) / Azərbaycanın maddi mədəniyyəti, IV c. Bakı, 1962, s. 6-67 (müştərək).
2. Azərbaycandan tapılmış tunc kəmərlər / Azərbaycanın maddi mədəniyyəti, IV c. Bakı, 1962, s. 68-108 (müştərək).

**Məqalələr**

1.Qazax rayonunun Qazaxbəyli kəndi yaxınlığındakı qədim qəbristanlıq haqqında // Azərbaycan SSR EA Xəbərləri, ictimai elmlər seriyası, 1958 № 2.
2.Qazıməmməd rayonunun bəzi arxeoloji abidələri haqqında // Azərbaycan SSR EA Məruzələri, 1958, XIV c., № 11.
3. Dərəzaratda orta əsr kəndi / Azərbaycan Tarixi Muzeyinin Əsərləri, III c. Bakı, 1960.
4. Xınıslı daş heykəlləri // Azərbaycan SSR EA Məruzələri, 1960, XVI c., № 11.
5. Xınıslı qədim yaşayış yeri // Azərbaycan SSR EA Xəbərləri, ictimai elmlər seriyası, 1961, № 3.
6. Enıx qalası // Azərbaycan SSR EA Məruzələri, 1962, XVIII c., № 4.
7. Xınıslıda arxeoloji qazıntıların ilk nəticələri haqqında / Azərbaycanın maddi mədəniyyəti, VI c. Bakı, 1965.
8. Sırt-Çiçidə arxeoloji tapıntılar / Azərbaycanın maddi mədəniyyəti, VII c. Bakı, 1973 (müştərək).
9. Maraqlı incəsənət abidəsi / Azərbaycanın maddi mədəniyyəti, VII c. Bakı, 1973.
10. Qusar rayonunun Hil kəndi ərazisindəki bəzi arxeoloji abidələr haqqında // Azərbaycan SSR EA Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1977, № 1 (müştərək).
11. Ağyazıda arxeoloji tapıntılar / Azərbaycanın maddi mədəniyyəti, X c. Bakı, 1987.
12. Das alte Schemacha im Lichte der archaologischen Ausgrabungen // Das Altertum, Heft 1, 1978, Bd. 24.
13. Archaologische Forschungen in Azerbaidshan // Das Altertum, Heft 2, 1982, Bd. 28.
14. Поселение на холме Сары-тепе // Советская археология, 1960, № 4.
15. Раскопки на городище Хыныслы, памятнике древней Кавказской Албании // Советская археология, 1962, № 1.
16. Первая сессия по археологии Азербайджана // Советская археология, 1964, № 3.
17. Археологические памятники I тысячелетия у с. Худжбала в Азербайджанской ССР // Советская археология, 1965, № 3.
18. Археологические находки близ села Дагколаны Шемахинского района / Археологические исследования в Азербайджане. Сборник статей. Баку, 1965.
19. О раннесредневековом могильнике у села Эных Кусарского района / Археологические исследования в Азербайджане. Сборник статей. Баку, 1965.

20. Памяти Алескера Казым оглы Алекперова // Советская археология, 1966, № 3.
21. Археологические находки «скифского» облика и вопрос о «Скифском царстве» на территории Азербайджана / Проблемы скифской археологии. Москва, 1971.
22. Гяфле-тепелери - поселение эпохи ранней бронзы в Азербайджане / Кавказ и Восточная Европа в древности. Москва, 1973 (в соавторстве).
23. О городах древней Кавказской Албании // Советская археология, 1974, № 4 (в соавторстве).
24. Серебряное блюдо с позолотой из древней Шемахи // Вестник древней истории, 1976, № 3.
25. Античные традиции в материальной культуре Кавказской Албании / Античность и античные традиции в культуре и искусстве народов Советского Востока (Сборник статей). Москва, 1978 (и соавторстве).
26. Шемаха античной эпохи / Проблемы античной истории и культуры (Доклады XIV Международной конференции античников социалистических стран «Эйрене»), II. Ереван, 1979.
27. Об археологических памятниках Северо-Восточного Азербайджана //Доклады АН Азербайджанской ССР, 1981, т. XXXVII, № 12 (в соавторстве).
28. Находки китайского фарфора на городище средневековой Гянджи // Советская археология, 1988, № 2 (в соавторстве).
29. Разведочные исследования на городище Шабран / Материальная культура Азербайджана, т. XI. Баку, 1993 (в соавторстве).
30. Могильник у сел. Рустов Кубинского района и его место в культурных связях Дагестана и Азербайджана / Материалы по изучению историко-культурного наследия Северного Кавказа. Выпуск VIII. Крупновские чтения 1971-2006. Памятники исторической мысли. Москва, 2008.

## COMMEMORATING THE 85TH ANNIVERSARY OF THE GREAT SCHOLAR-ARCHAEOLOGIST JABBAR KHALILOV

**Roza Arazova**

### Summary

**Keywords: archaeologist, J.A.Khalilov, jubilee, biography.**

The article is devoted to the 85th anniversary of the great scholar-archaeologist, one of the famous representatives of classical Azerbaijani archaeology, the mastermind of the field archaeology, Doctor of History Jabbar Khalilov(1928-1994), who was one of the first professors among Azerbaijani archaeologists. There is also the list of the main scientific works of J. Khalilov as well as works dedicated to the famous archaeologist.

# К 85-ЛЕТИЮ СО ДНЯ РОЖДЕНИЯ

# ВЫДАЮЩЕГОСЯ УЧЁНОГО-КАВКАЗОВЕДА ДЖ.А.ХАЛИЛОВА

**Роза Аразова**

**Резюме**

**Ключевые слова: археолог, Дж.А.Халилов, юбилей, биография**

Статья посвящена 85-летнему юбилею выдающегося археолога, одного из представителей классической азербайджанской археологии, организатора полевой археологии Азербайджана, доктора исторических наук, первого профессора среди археологов-азербайджанцев Джаббара Асадулла оглу Халилову (1928-1994 гг.). К статье прилагаются список опубликованных трудов, посвященных Дж.А.Халилову, а также список изданных основных научных трудов Дж.А.Халилова.

# USTAD MÜƏLLİM, ZƏHMƏTKEŞ ALİM, QAYĞIKEŞ İNSAN

**Əsədulla Cəfərov**
(AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu)
**nagievas@gmail.com**

**Açar sözlər: tələbə, müəllim, alim, xatirələr.**

Bəşər tarixində insanlığın keçdiyi inkişaf yollarına nəzər salmaq, onun yüksəliş mərhələlərinə səyahət etmək olduqca mənalı və maraqlıdır. Çünki bu inkişaf yollarında bəşər sivilizasiyasının əsasları həkk olunmuşdur. Eyni zamanda ayrı-ayrı dahi insanların, şairlərin, ziyalıların və xüsusilə də, alimlərin keçdiyi mənalı və çoxşaxəli həyat yolunu öyrənməyin və onu təbliğ etməyin müasir zəmanəmizdə olduqca mühüm əxlaqi-mənəvi əhəmiyyəti vardır. Xüsusilə də, böyüməkdə olan gənc nəsil üçün tarix elimləri doktoru, professor Cabbar Əsədulla oğlu Xəlilovun keçdiyi mənalı həyat və elmi tədqiqat yolu örnək olmalıdır.

Usdad müəllim, zəhmətkeş alim, qayğıkeş insan olan Cabbar müəllimin bu yaxınlarda 85 yaşı tamam olmuşdur.

Cabbar müəllimi ilk dəfə 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində oxuyarkən gördüm. Bir neçə ay keçdikdən sonra Cabbar müəllim bizə Arxeologiyanın əsasları fənnini tədris etməyə başladı. İlk günlərdən etibarən onun apardığı mühazirələr məni valeh etdi. Arxeologiyanın ayrı-ayrı inkişaf dövrlərini, onların maddi mədəniyyət qalıqlarının xarakterik xüsusiyyətlərini Cabbar müəllim məharətlə bizə izah edirdi. Onun Azərbaycan, Qafqaz, Yaxın Şərq, Avropa, Orta Asiya və digər bölgələrdə aşkar edilmiş arxeoloji düşərgələrin maddi mədəniyyət qalıqlarına aid mühazirələri xüsusi maraq doğururdu. Cabbar müəllimin mühazirələrinə qulaq asdıqca arxeologiyaya olan həvəs daha da artırdı. Tələbələrin verdikləri suallara olduqca həssas və mənalı cavab verən Cabbar müəllim lazım gəldikdə ayrı-ayrı arxeoloji dövrlərə aid əmək alətlərinin nümunələrini də bizə nümayiş etdirir və onların xarakterik cəhətlərini izah edirdi.

Cabbar müəllimin ən gözəl xüsusiyyətlərindən biri savadlı tələbələrə xüsusi qayğı göstərməsi idi. Arxeologiyaya həvəsi olan tələbələri yay mövsümündə respublikamızın ərazisində apardığı arxeoloji qazıntı işlərinə dəvət edərdi.

Cabbar müəllim imtahan prosesində olduqca ciddi və tələbkar idi. Savadı olmayan tələbələrə heç vaxt yüksək qiymət verməz və onlara müəyyən

biliklər əldə etdikdən sonra imtahana girmələrini tövsiyyə edərdi.

Cabbar müəllim quruluşca əzəmətli və olduqca tələbkar bir müəllim idi. Eyni zamanda onun sadə qəlbi və həssas ürəyi var idi. Köməyə ehtiyacı olan tələbələrə hər cür yardım göstərərdi.



C.Ə.Xəlilov çıxış edərkən

Tale elə gətirdi ki, 1971-ci ilin martın 24-dən Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə Tarix İnstitutunda Daş dövrü arxeologiyası şöbəsi təşkil olundu və həmin ilin aprelin 1-dən məni Daş dövrü arxeologiyası şöbəsinə işə dəvət etdilər və həmin vaxtdan etibarən Cabbar müəllimlə bir institutda işləməyə başladım.

Azərbaycan Elmlər Akademiyasında işlədiyim vaxtlarda Cabbar müəllimlə daha da yaxından tanış oldum. Hesab edirəm ki, sonralar arxeologiya ixtisası üzrə tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülməyimdə, institutun Daş dövrü arxeologiyası şöbəsinin müdiri təyin olunmağımda Cabbar müəllimin tələbəsi olarkən ondan aldığım arxeoloji təməl biliklərinin böyük rolu olmuşdur.

«Древняя история Северного Кавказа» весьма богата и многообразна по содержанию. Основной ее научный стержень составляет монографическое исследование кобанской культуры I тыс. до н. э. Содержание книги выходит далеко за рамки собственно кобанской культуры; в ней поставлены и решены многие кардинальные вопросы древ-

ней истории Северного Кавказа – о связях населения Кавказа со скифскими, позднее сарматскими племенами, о широких международных связях населения древнего Кавказа и их путях, о происхождении некоторых современных кавказских народов и пр. Всем своим содержанием книга Е.И.Крупнова неопровержимо доказывает главное – горы Кавказа никогда не были «дикими горными трущобами» и отсталой окраиной древнего цивилизованного мира, напротив, Кавказ был одним из очагов высокой культуры и в III - I тыс. до н. э., а история кавказских народов уже с этой седой древности была органически связана с историческими судьбами племен и народов Древнего Востока и Юго-Восточной Европы.

В 1966 г. вышла в свет статья Е.И.Крупнова «Кавказ в древнейшей истории нашей страны», где вновь была показана несостоятельность бытовавших в буржуазной историографии утверждений о якобы извечной культурной отсталости северокавказских народов. Правильное, подлинно научное выяснение исторической роли Кавказа во всех аспектах было в центре научных интересов Евгений Игнатьевича до последних дней его жизни.

С 1957 г. руководимая Е.И.Крупновым экспедиция становится объединенной Северо-Кавказской археологической экспедицией (СКАЭ) с участием Чечено-Ингушского, Северо-Осетинского, Карачаево-Черкесского научно-исследовательских институтов и музеев краеведения. По количеству сотрудников, охваченной полевыми исследованиями территории и широте научной проблематики СКАЭ становится одной из крупных археологических экспедиций СССР. В этом – огромная заслуга ее организатора и бессменного руководителя Е.И.Крупнова.

Наиболее широкие и плодотворные работы были развернуты в Северо-Осетинской и Чечено-Ингушской АССР. В 1957 г. СКАЭ начала многолетние исследования в районе Эльхотово-Змейской, где впервые в широких масштабах был раскопан поселок кобанской культуры IX-VIII вв. до н. э. Тогда же другой отряд СКАЭ начал раскопки обширного аланского катакомбного могильника XI-XII вв. у станицы Змейской, а годом позже было начато третьим отрядом изучение крупнейшего средневекового городища Северной Осетии «Верхний Джулат». Полученные здесь археологические материалы ныне принадлежат к числу основных источников по древней и средневековой истории не только Северной Осетии, но и всего Северного Кавказа. Роль Евгения Игнатьевича в организации упомянутых иссследований и научной оценке добытых материалов трудно переоценить. Достаточно сказать, что он первым энергично и уверенно присоединился к предположению

Л.И.Лаврова о локализации на «Верхнем Джулате» известного в русских летописях «славного ясского города Дедякова».

Огромное значение для разработки все еще слабо изученной истории народов Че-чено-Ингушетии имеют многолетние работы СКАЭ на территории ЧИ АССР. Исследованиями учеников Е.И.Крупнова (Р.М.Мунчаева, В.И.Марковина, В.И.Козенковой, М.Х.Багаева и др.) добыт настолько большой материал (от эпохи камня до позднего средневековья), что воссоздание древней истории республики стало вполне реальным делом. Неутомимый организатор и руководитель этих исследований, Евгений Игнатьевич начиная с 1959 г. непосредственно руководил раскопками двухслойного поселения у Сержень-Юрт. Ухудшившееся здоровье не позволило Евгению Игнатьевичу довести до конца эти раскопки, завершенные в последние годы В.И.Козенковой.

Серженьюртовское поселение – второй (после Змейского) древний поселок, раскопанный полностью. Верхний слой его синхронен Змейскому поселению и органически связан с кобанской культурой. Материалы этого слоя, особенно результаты радиоуглеродного анализа древесного угля, позволили Е.И.Крупнову вновь вернуться к вопросу о датировке и периодизации кобанской культуры и прийти окончательно к убеждению, что кобанская культура сформировалась и бытовала на Центральном Кавказе с XI по IV в. до н. э., пройдя три последовательных этапа своего развития. Этому посвящена одна из последних статей исследователя «Об уточненной датировке и периодизации кобанской культуры».

Еще большее значение имеют материалы из нижнего культурного слоя Серженьюртовского поселения. По его наблюдениям эти материалы тесно связаны с аналогичными материалами Дагестана и Закавказья и позволяют сделать важный исторический вывод о существовании в III тыс. до н. э. общекавказской культурной и этнической общности. Обоснование этого вывода с привлечением широкого круга историко-лингвистических исследований мы находим в проблемной работе Е.И.Крупнова «Древнейшая культура Кавказа и кавказская этническая общность». Это исследование отражает никогда не оставлявший Евгения Игнатьевича глубокий интерес к проблеме происхождения народов Кавказа.

Многостронняя работа коллектива СКАЭ освещена не только в многочисленных статьях, но и в трех томах трудов экспедиции, редактором и одним из авторов которых был Е.И.Крупнов.

В последние годы жизни Евгений Игнатьевич, обобщая свой научный опыт, обращается к замечательному устнопоэтическому творчеству северокавказских народов – нартскому эпосу.

Длительное изучение кобанской культуры привело его к заключению о том, что именно в эту героическую эпоху первого появления железа могло сформироваться основное ядро нартского эпоса. Работа Е.И.Крупнова «О времени формирования основного ядра нартского эпоса у народов Кавказа» привлекла внимание не только специалистов, но и широкой научной общественности. Основательное исследование о нартском эпосе было мечтой ученого, но ей, к сожалению, не было суждено сбыться.

Поистине «лебединой песнью» Евгения Игнатьевича стала сданная им в печать в 1970 г. «Средневековая Ингушетия». И здесь исследователь остался верен себе – зародившийся еще в молодости интерес он целеустремленно пронес через всю жизнь и вновь вернулся к нему в конце своего творческого пути. Основательно переработав и пополнив новыми материалами свою кандидатскую диссертацию, Е.И.Крупнов дал по существу новую монографию, впервые (после устаревшей книги Г.К.Мартиросиана) освещавшую слабо изученную историю Ингушетии.

Говоря о творческом пути Е.И.Крупнова, нельзя не сказать особо о его многолетней научно-педагогической деятельности. Евгением Игнатьевичем подготовлен большой отряд высококвалифицированных археологов, ныне работающих в центральных и местных научных учреждениях (И.Г.Нариманов, Д.А.Халилов, Т.А.Бунятов, Р.М.Мунчаев, В.И.Марковин, В.А.Кузнецов, В.И.Козенкова, Д.М.Атаев, И.М.Мизиев, В.В.Бжания, О.Х.Бгажба, М.Х.Багаев, О.Д.Давудов и др.). Особое внимание Е.И.Крупнов уделял подготовке национальных кадров археологов, считая это своим долгом и щедро делясь с молодежью не только знаниями и опытом, но и накопленными археологическими материалами.

Е.И.Крупнов достойно представлял советскую науку за рубежом во время поездок в Сирию, Ливан, Ирак, Турцию и Югославию. В 1963 г. за заслуги в освещении культурных связей южных районов СССР со странами Бдижнего Востока ему была присуждена премия известного ливанского писателя и общественного деятеля Саида Акля. За большие научные достижения и плодотворную общественную деятельность Евгений Игнатьевич был награжден орденом Трудового Красного Знамении и четырьмя медалями, дважды награжден Почетными грамотами Президиума Верховного Совета и Совета Министров Северо-Осетинской АССР. Ему было присвоено почетное звание заслуженного деятеля науки Чечено-Ингушской и Кабардино-Балкарской АССР.

Гражданин и коммунист, он все свои силы отдавал во имя процветания советской науки. Можно было удивляться неиссякаемой

энергии этого уже немолодого человека: он находил время и для нелегкой работы в ВАКе, заведовал сектором неолита и бронзы Института археологии АН СССР, был членом редколлегии журнала «Советская археология».

Осенью 1968 г., находясь на Международном конгрессе в Душанбе, Евгений Игнатьевич почувствовал себя плохо. С этих пор недуг не оставлял его, но он стремился исползовать всякую возможность для любимого дела, для общения со своими коллегами, учениками, друзьями. Но силы постепенно покидали Евгения Игнатьевича. «Нервы у меня на пределе, а с ними и сердце», - пишет он автору этих строк 25 июля 1970 г. Через два месяца Евгения Игнатьевича не стало...

Советское кавказоведение потеряло одного из известнейших своих представителей. Все, кто знал Евгения Игнатьевича Крупнова, сохранят о нем светлую и благодарную память.

# ALBANİYANIN QƏBİR ABİDƏLƏRİNİN DÖVRÜNÜN TƏYİNİNDƏ ANTİK SANCAQLARIN ROLU*

**Cabbar A. Xəlilov**

**Açar sözlər: Albaniya, qəbirlər, sancaqlar, xronologiya.**

Arxeoloji abidələrin və komplekslərin tədqiqi zamanı onların yaşının təyin edilməsi asan yolla başa gəlmir. Bu məsələnin həllində tədqiqatçılar müxtəlif üsullara əl atırlar. Bunların içərisində daha çox tətbiq edilən və nisbətən dəqiq olan müqayisəli təhlil üsuludur. Daha doğrusu, bu və yaxud başqa kompleksin tərkibində olan, tarixi az-çox məlum olan materiallara əsaslanaraq kompleksin, abidənin və hətta bütöv bir mədəniyyətin yaşı təyin olunur. Bu baxımdan sikkələr, möhürlər və istehsal tarixi məlum olan ayrı-ayrı tapıntılar daha tutarlıdır. Son tədqiqatlar göstərir ki, əsasən Roma dövrünə aid olan yay formalı cəftəli və minalı döş sancaqları da bu baxımdan az əhəmiyyətli deyildir. Buna görə də onların ümumiləşdirilməsinə və ayrı-ayrı komplekslərin daxilində müqayisəli təhlilinə ehtiyac vardır.

Məlumdur ki, Azərbaycanın müvafiq dövr abidələrinin qazıntısı zamanı başqa maddi-mədəniyyət nümunələri ilə yanaşı əsasən qədim Romada və onun əyalətlərində istehsal edilmiş, iqtisadi-mədəni əlaqələr nəticəsində buraya gətirilmiş xeyli miqdarda yay formalı cəftəli və minalı döş sancaqları tapılmışdır. Belə sancaqların ən samballı nüsxələrinə Mingəçevir və Yaloylutəpə abidələrində, qədim Şamaxı şəhərinin nekropolunda və Ucar rayonunun Bəhmən-Bərgüşad kəndi yaxınlığında tədqiq edilmiş küp qəbrində təsadüf olunmuşdur. Belə sancaqlara ilk orta əsr abidələrində də təsadüf olunur, lakin bu məqalədə onlardan bəhs etməyəcək, yalnız I-III əsrlərə aid nümunələrlə kifayətlənəcəyik.

Təsvir edəcəyimiz sancaqların xeyli hissəsi A.K.Ambrozun bu tip sancaqlara həsr etdiyi toplusunda cəmləşdirilmişdir (3). Lakin A.K.Ambrozun əsərinə daxil edilməmiş sancaqlar da vardır. Bunların əsas hissəsi göstərilən əsərin nəşrindən sonra qədim Şamaxının tədqiqi zamanı tapılmışdır. Onların əsasında bütöv komplekslərin yaşını təyin etmək mümkündür.

Hazırda A.K.Ambrozun təsnifatı sancaqlarla məşğul olan bütün tədqiqatçılar tərəfindən qəbul edilmişdir. Biz də öz təhlilimizdə onu əsas tutacağıq. Qeyd etməliyik ki, biz qarşımıza Azərbaycan ərazisindən məlum

* Bu məqalə müəllif tərəfindən 1974-cü ildə hazırlanıb.

olan bütün sancaqları ümumiləşdirmək vəzifəsini qoymamışıq. Burada söhbət nəşr olunmuş və son vaxtlar qədim Şamaxıdan tapılmış sancaqlardan gedəcəkdir.

Azərbaycan ərazisindən məlum olan bir neçə yay formalı cəftəli sancaq A.K.Ambrozun təsnifatındakı "AVCİSSA" tipli, beşinci qrupun birinci tipinə müvafiq gəlir. Bunlar erkən Roma dövrünə aid qövs formalı əyməsi olan tunc sancaqlardır. Belə sancaqlardan ikisi (tablo I, 1, 2) Mingəçevirin küp qəbirlərindən (8, s. 58, şəkil 22, 18-19), biri qədim Şamaxının nekropolundakı torpaq qəbrindən (tablo I, 3) və sonuncu nümunəsi isə Ucar rayonunun Bəhmən-Bərgüşad kəndi yaxınlığındakı Qaratəpədə tədqiq olunmuş küp qəbirlərinin birindən (tablo I, 4) aşkar olunmuşdur.

Bəhmən-Bərgüşadda tədqiq edilmiş və sancaq üzə çıxarılmış 2 №-li küp qəbrində arxası üstündə uzadılmış vəziyyətdə böyük adama və uşağa məxsus 2 skelet aşkar olunmuşdur. Qəbrin avadanlığına üzərində parça izləri qalmış göstərilən sancaq və qaşlı üzük daxil olmuşdur (7, s. 21, 24-26, tablo II, 13, s. 23, 25, şəkil 5). Belə sancaqların Galliya və yaxud Şimali İtaliyada istehsal olunduğu müəyyənləşdirilmişdir (3, s. 26). Onların ayrı-ayrı nümunələrinə daha çox Şimali Qafqazda, az bir qisminə isə Dnepr çayının orta axarlarındakı ərazilərdə və başqa bölgələrdə təsadüf edilmişdir (3, s. 26). A.K.Ambroz bu tipə daxil olan məlum sancaqları və onlarla əlaqədar başqa materialları müqayisəli surətdə təhlil edərək belə nəticəyə gəlmişdir ki, yeni eranın I əsrinin birinci yarısında bu sancaqlar geniş yayılmış və 70-80-ci illərdə onların istehsalı dayandırılmışdır (3, s. 26). Bu fikri Mingəçevirin küp qəbirlərindən sancaqla birlikdə tapılmış imperator Avqust (e.ə. 27 - e. 14-cü illəri) və Arsaklar sülaləsindən olan IV Fraatın (e.ə. 38/7 - e. 3/2-ci illəri) sikkələri də təsdiq edir (6, s. 16, 17; 8, s. 55-56). Beləliklə, təsvir etdiyimiz sancaqların tarixini I əsrdən əvvələ aparmaq olmaz. Bu tarixi I əsr çərçivəsində müəyyənləşdirmək daha dəqiq olar. Əgər belədirsə, onda Mingəçevirdə və Ucar rayonunda tədqiq edilmiş, eyni tipli sancaqların aşkar edildiyi küp qəbirlərini və qədim Şamaxı nekropolunda açılmış torpaq qəbrini I əsrdən qədimə aparmaq olmaz.

Mingəçevirin küp qəbirlərinin birindən tapılmış (1, s. 204, tablo I, 4), təxminən mütənasib ölçülü əyməsi olan bir ədəd cəftəli gümüş sancaq (tablo I, 5) A.K.Ambrozun təsnifatında beşinci qrupun ikinci tipinə aid edilmişdir (3, s. 27). Belə sancaqlar Krım və Qafqazdan daha çox tapılmışdır. Onlar formalarına görə Dunay çayının yuxarı axarlarında yerləşmiş qədim Roma hərbi düşərgələrindən tapılmış sancaqlara uyğun gəlirlər. Bu sancaqlardan

istər Dunay boyu Roma hərbi düşərgələrində, istərsə də SSRİ (indiki MDB - *red.*) ərazisində I əsrdə istifadə olunduğu müəyyənləşdirilmişdir (3, s. 27). Mingəçevirdə sancaqla birlikdə qəbirdən 6 ədəd gümüş sikkə tapılmışdır. Onlardan biri L.Skribonin Liboya (e.ə. I əsrin ortaları), ikisi L. Plavti Planka (e.ə. 45-ci ilə yaxın), biri Qney Pompey Maqnusa (e.ə. 46 - 45-ci illərə yaxın) aid olan Roma (respublika) dinarları və sonuncusu isə II Tiqranın (e.ə. 97-56-cı illər) draxmasıdır (1, s. 203). Beləliklə, qeyd etdiyimiz sikkələr onlarla birlikdə tapılmış sancağın Azərbaycan ərazisinə e. I əsrinin əvvəllərində gətirildiyini söyləməyə əsas verir. Bu isə öz növbəsində sancaqların tapıldığı və ya oxşar material vermiş konkret abidələrin və komplekslərin tarixini I əsr çərçivəsində məhdudlaşdırmaq üçün bir əsasdır.

Qədim Şamaxı şəhərinin nekropolundan A.K.Ambrozun təsnifatındakı sancaqların beşinci qrupunun dördüncü tipinə uyğun gələn, ayağının qurtaracağı çıxıqlı, beli üçkünc olan iki sancaq tapılmışdır (tablo I, 6, 7). Bunlardan biri tuncdan (Şamaxı arxeoloji ekspedisiyasının 1965-ci il çöl-qeyd kitabı, № 2369), o biri isə dəmirdəndir (Şamaxı arxeoloji ekspedisiyasının 1963-cü il çöl-qeyd kitabı, № 1244). Tunc sancaq 63 №-li torpaq qəbrindən tapılmışdır. Qəbir kamerasında, 2,3 m dərinlikdə, küp qırıqlarının üstündə kəlləsi şərqə istiqamətləndirilmiş, sağ böyrü üstündə, bükülü vəziyyətdə bir uşaq skeleti aşkar edilmişdir. Onun yanından göstərdiyimiz sancaqdan başqa muncuqlar və 6 ədəd saxsı qab tapılmışdır. Gil qablar qırmızı rəngli çanaq, qulplu cam, qara çölmək, çiynində üç ilgəkvari kiçik və böyük şaquli qulpu olan qırmızı rəngli küpə, ağımtıl rəngli, ağızı dördkünc və qırmızı rəngli lüləkli bardaqlardan ibarətdir. Qeyd etdiyimiz dəmir sancaq isə irəlidə təsvirini verəcəyimiz 34 №-li torpaq qəbrindən minalı döş sancağı ilə birlikdə tapılmışdır. Dəmirdən düzəldilmiş belə sancaqlara Mingəçevirin erkən katakomba qəbirlərinin avadanlığının tərkibində də təsadüf edilmişdir (2, s. 244, VII tablo, 4-cü şəkil; 4, s. 70, şəkil 29, 21). Bu tipli sancaqların mənşəyi hələlik təyin edilməmişdir. Onların dövrü isə II-III əsrlər çərçivəsində müəyyənləşdirilmişdir. Tapılmış bu tip sancaqlar onların daxil olduqları müvafiq abidələrin dövrünü II-III əsrlərə aid etməyə əsas verir.

Azərbaycan ərazisindən tapılmış sancaqların böyük bir hissəsi A.K.Ambrozun təsnifatında yeddinci qrupa daxil edilmiş üstü mina ilə bəzədilən enli əyməli cəftəsi olan sancaqlara uyğun gəlir. Bunlardan biri (tablo I, 9) 1959-cu ildə Yaloylutəpədə tədqiq edilmiş 3 №-li torpaq qəbrindən tapılmışdır (9, s. 23-24). Bu sancağın enli əyməsinin üstünə əlavə olaraq dairəvi lövhə qaynaq edilmişdir. Həmin lövhənin üzərində altıguşəli ulduz

təsviri cızılmışdır. Bu təsvir açıq şabalıdı rənglə doldurulduqdan sonra üzəri şəffaf mina təbəqəsi ilə örtülmüşdür. Sancağın üçbucaq formalı ayağı vardır (9, s. 23-24). A.K.Ambroz bu sancağı təsnifatındakı yeddinci qrupun dördüncü tipinə aid edir (3, s. 29). Belə sancaqlar əsasən Roma imperiyasının qərb əyalətlərində və Pannoniyada II əsrdə daha çox yayılmış, II əsrin ikinci yarısından etibarən şimal və şərq ölkələrinə ixrac edilmiş və III əsrin əvvəllərində onların ixracı dayandırılmışdır (3, s. 29). Yaloylutəpədən sancaqla birlikdə 5 ədəd gil qab, tunc və dəmir üzüklər, qızıl sırğa və müxtəlif muncuqlar tapılmışdır (9, s. 22-24, tablo VIII-X). Qeyd etdiyimiz sancaq Yaloylutəpədə tədqiq edilmiş bu qəbrin və analoji avadanlıq vermiş başqa qəbirlərin dövrünü dəqiqləşdirməyə imkan yaradır. Beləliklə, Yaloylutəpənin 3 №-li torpaq qəbri Ö.Ş.İsmizadənin müəyyənləşdirdiyi kimi, e.ə. III-I əsrlərə deyil (baxın: 9, s. 72), ən geci e. II əsrinin ikinci yarısına və bəlkə də, II əsrin sonu - III əsrin əvvəllərinə aid edilə bilər. Avadanlığının tərkibində piramida formasında düzülmüş üç kürəcikli qızıl sırğalar olan 1 və 3 №-li Yaloylutəpə qəbirləri A.Ə.Qaraəhmədovanın da diqqətini cəlb etmiş və o həmin sırğaları müqayisəli təhlil edərək onların Qafqaz Albaniyasına eranın ilk əsrlərində Romanın Cənubi Qafqazla qismən genişlənən iqtisadi-siyasi əlaqələri nəticəsində gətirildiyini (10, s. 275), belə sırğalardan Albaniyada e.ə. I - e. III əsrlərində istifadə edildiyini göstərmişdir (10, s. 274). Təsvir etdiyimiz minalı, cəftəli sancaq piramida formasında düzülmüş üç kürrəcikli sırğaların Albaniyaya gətirilməsi tarixini dəqiqləşdirir. Bu tarixi II əsrin ikinci yarısı - III əsrin əvvəlləri çərçivəsində məhdudlaşdırmağa əsas vardır. Həmin tarix Yaloylutəpə abidələrinin xronologiyasının son mərhələsi hesab edilə bilər.

Mingəçevirin erkən katakomba qəbirlərinin birindən əyməsinin üstü minalı gümüş sancaq (tablo I, 10) tapılmışdır (4, s. 67, şəkil 27, 4). A.K.Ambroz bu sancağı təsnifatındakı yeddinci qrupun müxtəlif sancaqlar tipinə daxil etmiş və belə sancaqların oxşarlarının Pantikapeydən tapıldığını göstərmişdir (3, s. 30). Çox güman ki, həmin sancaq Albaniyaya e. II əsrinin ikinci yarısında gətirilmişdir.

Mingəçevirin erkən katakomba qəbirlərinin birindən göstərdiyimiz dövrə və tipə aid, əyməsinin üstündə xaçvari naxış cızılmış minalı sancaq da tapılmışdır (4, s. 70, şəkil 29,19). Enli əyməsi üzərində naxış cızılaraq minalanmış sancaqların bir yaxşı nümunəsi də (Şamaxı arxeoloji ekspedisiyasının 1963-cü il çöl-qeyd kitabı, № 1232) qədim Şamaxı şəhərinin nekropolunda tədqiq olunmuş 34 №- li torpaq qəbrindən tapılmışdır (tablo I, 8).

A.K.Ambrozun təsnifatında belə sancaqlar yeddinci qrupun ikinci tipinə daxil edilmişdir (3, s. 29). Enli, dördkünc əyməsi olan həmin sancaqlar e. II əsrinin ikinci yarısına - III əsrin əvvəllərinə aid olunur. Şamaxıdan tapılmış sancağın əyməsinin üzəri cızma naxışlıdır. Naxışlar açıq qəhvəyi rənglə doldurulduqdan sonra üzərinə şəffaf mina təbəqəsi çəkilmişdir. Bu sancağın da əyməsinin ortasına dördkünc lövhə qaynaq edilmişdir. Lövhənin üzərində naxışlar cızılmış, rənglə doldurulduqdan sonra minalanmışdır. Üstü naxışlı və minalı Şamaxı sancağının tam analoji nümunələri Olviyanın II əsrə aid qəbrində və Gürcüstanın Bori kəndi yaxınlığında tapılmışdır (3, s. 29).

Mingəçevirdə və qədim Şamaxıda aparılmış arxeoloji qazıntılar nəticəsində 15-ə qədər üstü minalı döş sancaqları da tapılmışdır. Bu sancaqlar əsas lövhəsinin formasına görə 4 qrupa (dairəvi, romb, düzbucaq və trapesiya) bölünür. Döş sancaqları arasında dairəvi lövhə formalı əsası olan nümunələrə daha çox təsadüf edilmişdir. Bu sancaqların 7 ədədi Mingəçevirdən (5, s. 14), biri isə qədim Şamaxı nekropolunun 34 №-li torpaq qəbrindən tapılmışdır (Şamaxı arxeoloji ekspedisiyasının 1963-cü il çöl-qeyd kitabı, № 1240). Bu qrupa daxil olan sancaqlar bir-birindən ölçülərinə və formalarının ayrı-ayrı əlamətlərinə görə fərqlənirlər. Həmin sancaqların hamısı tuncdan tökülmüşdür, arxa tərəfində paltara sancmaqdan ötrü cəftəsi vardır. Cəftənin dayaqları tuncdan, iynəsi isə dəmirdəndir. Belə sancaqların lövhəsini bəzi hallarda çevrə boyu kiçik dairəciklər bəzəyir. Şamaxıdan tapılmış sancağın dairəvi lövhəsinin ortasında çıxıq vardır (tablo II, 2). Lövhənin səthi dairələrlə üç zolağa bölünmüşdür. Hər zolaq bir cərgə nöqtələrlə bəzədildikdən sonra mərkəzdəki zolaq ağ, ikinci zolaq qırmızı, üçüncüsü isə tünd mavi boya ilə örtülmüş və üzərinə şəffaf mina qatı çəkilmişdir.

Qədim Şamaxı şəhərinin nekropolunda tədqiq edilmiş 34 №-li torpaq qəbrinin avadanlığı zəngin olmuşdur. Sancaqlardan başqa buradan 9 ədəd gil qab (bardaq, sərnic, kasa, çölmək və digər formalı qablar), gümüş cam, dəmir bıçaq, qızıl üzük, sırğa, bilərzik, pasta və mineral daşlardan müxtəlif muncuqlar, gümüş asma əldə edilmişdir (Şamaxı arxeoloji ekspedisiyasının 1963-cü il çöl-qeyd kitabı, № 1227-1246). Beləliklə, avadanlığı tərkibindəki 3 sancaq, o cümlədən, minalı döş sancağı əsasında qədim Şamaxının 34 №-li torpaq qəbrini tərəddüd etmədən II-III əsrlərə aid etmək olar. Bu isə öz növbəsində tədqiq edilmiş oxşar avadanlıqlı onlarla qəbrin dövrünü müəyyənləşdirmək üçün zəmin yaratmış olur.

Formaca Şamaxı sancağına çox oxşar bir nümunə (tablo II, 1) Mingəçevirin küp qəbirlərindən birində aşkar edilmişdir (2, s. 242, tablo V,

7). Həmin sancağın səthi cızılmış çevrələrlə 4 zolağa bölünmüşdür. Birinci (mərkəzi) və üçüncü zolaqlar ağ damalara bölünmüş, ikinci və dördüncü zolaqlar isə bir-birini əvəzləyən müxtəlif rənglərlə örtüldükdən sonra lövhənin səthinə şəffaf mina qatı çəkilmişdir. Şamaxı sancağında olduğu kimi bu sancağın da dairəvi lövhəsinin ortasında çıxıq vardır. Belə döş sancaqlarının ən yaxşı nümunələri Şimali Osetiyada, Qara dəniz sahilindəki antik şəhərlər - Pantikapey və Olviya xarabalıqlarında, Ukraynanın Çerkassı vilayətinin Leplyavo kəndi yaxınlığında aparılan qazıntılar zamanı tapılmışdır (3, s. 32).

Lövhəsinin ətrafına, çevrə boyu xırda dairəciklər qaynaq edilmiş daha bir döş sancağı Mingəçevirin II-III əsrlərə aid taxta qutu qəbrindən tapılmışdır (tablo II, 3). Həmin sancağın da əsas dairəvi lövhəsinin ortasında yuxarıda təsvirini verdiyimiz nümunələrdə olduğu kimi çıxıq vardır. Sancağın səthi bir neçə zolağa bölünmüş və müxtəlif rənglərlə doldurulduqdan sonra üzəri şəffaf mina ilə örtülmüşdür. Bu sancağa oxşar nümunələr də Şimali Osetiyadan məlumdur (3, s. 33).

Digər qrupu təşkil edən romb formalı sancaqlardan ikisi (tablo II, 4, 5) Mingəçevirin katakomba qəbirlərindən (4, şəkil 27, 13), üçüncüsü isə qədim Şamaxının nekropolunda tədqiq edilmiş torpaq qəbirlərinin birindən üzə çıxarılmışdır (tablo II, 6). Mingəçevir döş sancaqlarından birinin lövhəsinin iti bucaqlı hər ucuna üç, kor bucaqlı hər ucuna isə bir dairəcik qaynaq edilmişdir. Sancağın səthi kənarı boyunca cızma xətli haşiyəsi olan ağ zolaqla əhatələnmişdir. Bu çərçivənin içərisindəki sahə cızma xətlərlə romb formalı xanalara bölünmüş və həmin xanalar bir-birini əvəz edən dörd rənglə doldurulduqdan sonra üzərinə şəffaf mina çəkilmişdir. Mingəçevirdən tapılmış digər sancaq elmi ədəbiyyatda dəfələrlə təqdim edildiyi üçün, təkrar olmasın deyə, onun təsvirinə ehtiyac duymuruq. Şamaxıdan tapılmış romb formalı döş sancağı nisbətən mürəkkəb quruluşludur. Sancağın əsasını üç romb təşkil edir. Onlardan irisi mərkəzdə, digər ikisi isə uclarda yerləşir. Kiçik rombların hər üç küncünə lövhəciklər qaynaq edilmişdir. Onların səthi ağ maddə ilə doldurulmuş və sarımtıl rənglə hərəsində üç dairəcik çəkildikdən sonra şəffaf mina ilə örtülmüşdür. Mərkəzdəki iri rombun səthi çıxıntılarla üç bölməyə ayrılmışdır. Ortadakı sahə ağ maddə ilə doldurulduqdan və kiçik romblara qovuşan hər iki tərəfinə sarımtıl rənglə üç dairəcik çəkildikdən sonra üzəri şəffaf mina ilə örtülmüşdür. Kənar bölmələr bir qədər tünd rənglə doldurularaq minalanmışdır.

Qeyd edilən Şamaxı sancağı ilk dəfə təsvir edildiyi üçün sancağın aşkar edildiyi qəbir və onun avadanlığının üzərində dayanmağı zəruri hesab edirik. Torpaq qəbri (№ 32) 4, 5 m dərinlikdə yerləşirdi. Qəbir çalası qədim Şamaxının mədəni təbəqəsinin alt qatını kəsirdi və xam torpaqda daha 2 metrə qədər dərinləşdirilmişdi. Qəbir kamerasında sağ böyrü üstündə, bükülü vəziyyətdə, kəlləsi şərqə istiqamətləndirilmiş bir skelet qeydə alınmışdır. Onun ayaq tərəfindən beş gil qab tapılmışdır. Ağır torpaq qatının təzyiqindən qabların əksəriyyəti əzilmişdir. Buna görə də onların hamısının formasını müəyyənləşdirmək mümkün olmamışdır. Yalnız bəzi qırıqların qara gilli çölməyə məxsus olduğu sezilir. Yaxşı qorunub saxlanılmış qablardan biri geniş ağzı, onun səviyyəsində lüləyi, ağzından bir qədər yuxarı qaldırılmış qulpu olan qara gilli çıraq və ikincisi üstü cilalanmış, ağzının kənarı 2 sm enində dik qaldırılmış çəhrayı gilli xeyrədir. Skeletin kəlləsi tərəfdə də 2 ədəd gil qab aşkar edilmişdir. Onlardan biri əzilmiş, ikincisinin isə yalnız ağzının kənarı qırılmışdır. Bu cilalanmış, kürə formalı gövdəsi, ağzından bir qədər yuxarı qaldırılmış tək qulpu olan çəhrayı gilli qabdır. Saxsı qabların arasında xeyli miqdarda heyvan və quş sümükləri qeydə alınmışdır. Gil qablardan başqa qəbirdən yumurtavari qrafin formalı kiçik gövdəsi və uzun silindr formalı boğazı olan şüşə kolba da tapılmışdır. Qəbir avadanlığının tərkibinə bəzək əşyaları da daxildir. Bunlar iki ədəd döş sancağı, tuncdan tökülmüş xoruz fiqurlu asma, tunc zəng, bilərzik, dəmir asma və üzük, müxtəlif materiallardan düzəldilmiş muncuqlardan ibarətdir. Sancaqlardan birinin təsvirini yuxarıda verdik. Qəbirdən tapılmış ikinci sancaq qartal fiqurludur (Şamaxı arxeoloji ekspedisiyasının 1963-cü il çöl-qeyd kitabı, № 1154). Sancağın əsasını budağın üstündə başını arxaya çevirərək dayanmış qartalın yan tərəfdən əksi təşkil edir (tablo II, 7). Sancaq əsasən tuncdan tökülmüşdür. Arxa tərəfindəki cəftəsinin dayaqları tuncdan, iynəsi isə dəmirdən hazırlanmışdır. Qartalın göz yuvası çökək olmaqla başı, dimdiyi, lələkləri və başqa hissələri dəqiq və real təsvir edilmişdir. Həmin təsvirin üzərinə digər sancaqlar kimi mina deyil, nazik qızıl təbəqə çəkilmişdir. Beləliklə, bu sancaq bəzədilmə üslubuna və materialına görə başqalarından seçilir, lakin onlarla həmdövr və eyni mənşəlidir. A.K.Ambroz heyvan və quş fiqurlu sancaqları öz təsnifatının 8-ci qrupunun beşinci tipinə aid edir və onların e. II əsrində qədim Romanın əyalətlərində istehsal edildiyini göstərir (3, s. 34). Quş təsvirli döş sancaqları Xersones və Pantikapey abidələrindən də məlumdur (3, s. 35). Beləliklə, sancaqlar əsasında qədim Şamaxı nekro-

polundakı 32 №-li torpaq qəbrini və onun avadanlığına daxil olan digər əşyaları II - III əsrlərə aid etmək olar.

Dördkünc formalı minalı döş sancaqlarının iki nümunəsi Mingəçevirdən tapılmışdır. Onların yuxarı hissəsi ilan təsviri ilə tamamlanır. Rəngli səthi sarı nöqtələrlə bəzədilmiş həmin sancaqların üzərinə şəffaf mina çəkilmişdir (5, s. 14).

Mingəçevirdən trapesiya formalı sancaq da məlumdur. Həmin sancağın aşağı hissəsi balıq pulunu xatırladan çıxıntılarla bəzədilmiş, yuxarısı isə yarımdairəvi çıxıqla tamamlanır. Sancağın üstü ağ, qırmızı və mavi rənglərlə boyanmış və üzərinə şəffaf mina çəkilmişdir.

Ümumiyyətlə, minalı döş sancaqları II-III əsrlərdə qədim Romanın qərb əyalətlərində və Pannoniyada istehsal edilərək, buralardan şimal və şərq istiqamətlərində yayılmışdır. Qafqaz bölgəsində minalı döş sancaqları daha çox onun şimal hissəsində, Kamunta və Kumbulta qəbir abidələrindən (3, s. 32), Qara dəniz sahillərində isə Olviya, Xersones, Pantikapey və başqa bu kimi abidələrdən tapılmışdır. Belə sancaqlar Mərkəzi və Şərqi Avropada, o cümlədən, Macarıstanda da geniş yayılmışdı.

Yuxarıda təsvir etdiklərimizlə Azərbaycan ərazisindən məlum olan sancaqların siyahısı bitmir. Bəzi sancaqların hələ nəşr edilməməsi və onların böyük bir qrupunun kompleksdən kənar şəkildə nəşri həmin sancaqlardan müvafiq məsələlərin həllində istifadə olunmasını çətinləşdirir. Buna görə də biz məlum komplekslərə daxil olan sancaqları ümumiləşdirərək bəzi xronoloji məsələlərə toxunmaqla kifayətləndik. Göstərdiklərimizdən aydın olur ki, bu sancaqların iqtisadiyyat, siyasət və mədəniyyətlə bağlı məsələlərin şərhində və hər şeydən əvvəl ayrı-ayrı maddi-mədəniyyət nümunələrinin, abidə və komplekslərinin dövrünün müəyyənləşdirilməsində mühüm əhəmiyyəti vardır. Təsvir və təhlil etdiyimiz sancaqlar əsasən gətirilmədir. Bunlar qədim Romada və ya onun əyalətlərində I-III əsrlərdə istehsal edilmiş, iqtisadi və siyasi əlaqələr nəticəsində Albaniyaya ixrac edilmişdir.

## ƏDƏBİYYAT

1. Qazıyev S.M., Aslanov Q.M. İki küp qəbri haqqında / AMM, II cild. Bakı, 1951, s.201-210.
2. Nərimanov İ.H., Aslanov Q.M. Mingəçevirin bir qrup qəbir abidələri haqqında / AMM, IV cild. Bakı, 1962, s. 217-249.
3. Амброз А.К. Фибулы юга европейской части СССР. II в. до н.э. - IV в.н.э. Свод археологических источников, выпуск Д 1-30. Москва, 1966.

4. Асланов Г.М. К изучению раннесредневековых памятников Мингечаура / КСИИМК, выпуск 60. Москва, 1955, с. 63-72.
5. Асланов Г.М. Материальная культура Мингечаура I - VII вв. (на основе археологии катакомбных погребений). Автореферат кандидатской диссертации. Баку, 1963.
6. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, 1959.
7. Голубкина Т.И. Археологическое обследование и раскопки кувшинных погребений в Азербайджане в 1953 г. // Известия АН Азербайджанской ССР, серия общественных наук, 1959, № 1, с. 17-38.
8. Ионе Г.И. Мингечаурские кувшинные погребения с оружием / КСИИМК, выпуск 60. Москва, 1955, с. 54-62.
9. Исмизаде О.Ш. Ялойлутепинская культура. Баку, 1956.
10. Карахмедова А.А. Об одном типе серег из Кавказской Албании // СА, 1974, № 4, с. 271-275.

## ON THE ROLE OF ANTIQUE FIBULES IN DEFINIG THE CHRONOLOGY OF FUNERAL MONUMENTS OF CAUCASUS ALBANIA

**Jabbar A. Khalilov**

**Summary**

**Keywords: Albania, burial, fibul, chronology.**

As a result of archaeological researches of European monuments the rich collection of antique fibuls have been revealed. The majority of them were comparatively defined exactly at that time. Some of fibuls have been found in burial grounds of the Caucasus Albania. Based on above mentioned fibuls the chronology of funerals of Caucasus Albania is still being defined.

## РОЛЬ АНТИЧНЫХ ФИБУЛ В УСТАНОВЛЕНИИ ХРОНОЛОГИИ ПОГРЕБАЛЬНЫХ ПАМЯТНИКОВ КАВКАЗСКОЙ АЛБАНИИ

**Джаббар А. Халилов**

**Резюме**

**Ключевые слова: Албания, погребение, фибулы, хронология.**

В результате археологических исследований европейских памятников выявлена богатая коллекция античных фибул. Многие из них в свое время были сравнительно точно датированы. Ряд фибул из этой серии был зафиксирован также в могильниках Кавказской Албании. В статье на основе этих фибул уточняется хронология соответствующих погребений Кавказской Албании.

**Tablo I**



**Tablo II**



# МОТИВЫ ОРНАМЕНТА КУРА - АРАКССКОЙ КУЛЬТУРЫ В СЕВЕРО - ВОСТОЧНОМ АЗЕРБАЙДЖАНЕ

**Деюш Мусаев**
(Институт Археологии и Этнографии НАНА)
**m.timur78@gmail.com**

**Ключевые слова**: **Кура-Араксская культура, мотивы орнамента, керамические сосуды**

История изучения Кура – Араксской культуры в Северо – Восточном Азербайджане связана с именем Дж. А. Халилова. Под его руководством в 70 гг. XX в. была создана археологическая экспедиция «Свод Археологических памятников Азербайджана». Данная экспедиция открыла и обследовала ряд памятников в Хачмазском, Губинском, Гусарском, Дивичинском (ныне Шабранском) районах. С 1983 г. Начались широкомасштабные археологические раскопки на поселении Серкертепе, а с 2012 на поселении Моллабурхантепе. В результате раскопок выявлен великолепный археологический материал, относящийся к эпохе ранней бронзы.

Мотивы орнамента в Кура – Араксской культуре, видимо, имели двоякое значение: культово - духовное и отражающую хозяйственную жизнь древних племен. В значительной степени смысл узоров и изображений связан и с окружающим человека природой. С изменениями, происходившими в обществе, меняются и мотивы орнамента и даже их количество. Рассматривая Кура – Араксскую культуру с IV тыс. до н.э. и до III тыс. до н.э. по строительным горизонтам, мы можем наблюдать эти изменения. Особого расцвета орнаментация (особенно на керамической посуде) достигает в период конца IV - начала III тыс. до н.э. В IV тыс. до н.э. орнамент на сосудах очень незначителен, в конце III тыс. до н.э. он примитивный, и в основном, однообразный. Это, видимо, связано прежде всего с большими изменениями, происходившими в обществе и прежде всего, переходом от земледелия к скотоводству. Однако, в период средней бронзы вновь возрождаются новые мотивы орнамента и качество керамики, что связано уже с новой культурой.

Большая часть орнамента представлена на керамических сосудах и предметах и лишь единицы на кости, камне и во внутри помещения.

Глиняные сосуды в зависимости от типологических признаков и функциональных назначений разделены на несколько разновидностей. Метод орнаментации – налепной, вдавленный, нарезной, или в сочетаниях.

Мотив орнамента часто зависел от типа сосудов и он не повторялся на посуде другого типа. Однако отдельные мотивы имеют место и на разных сосудах.

В зависимости от типологических признаков и функционального назначения глиняные посуды подразделены на несколько разновидностей.

Особый интерес представляют два фрагмента крупных керамических сосудов, датируемые III тыс. до н.э.

Аналогии первому фрагменту мы не имеем. Начиная с плечика фрагмент покрыт орнаментом, выполненным методом вдавливания. В начале, в верхней части проходят три пояса насечек чередующимися горизонтальными и вертикальными парами. По нижней линией нанесен орнамент в виде трехступенчатой пирамиды – зиккурата. Внутри пирамиды нанесен орнамент – острый угол, который также орнаментирован насечками. Внешняя и внутренняя сторона пирамиды обрамлены точечными вдавлениями. Слева и справа от пирамиды нанесены по две пары треугольной бахромы. Качество керамики высокое, цвет розовый (табл. I, рис. 1).

Второй фрагмент на плечике имеет два параллельных пояска, от них опускаются линии, заканчивающиеся крючком. Все линии украшены точечными вдавлениями (табл. I, рис. 2).

Кувшины больших размеров снабжены двумя, иногда тремя ручками лентовидной или петлевидной формы, основания которых заканчиваются замкнутым валиком. Значение данных ручек имеет больше функций декора, и напоминает морду животного – коровы или быка. Орнамент на этих кувшинах довольно разнообразный, поэтому рассмотрим каждый орнамент в отдельности. Первый кувшин в широкой части корпуса орнаментирован двумя параллельными линиями, исполненными методом вдавливания. Пространство между поясами орнаментировано косыми, по четыре пары, длинными насечками. На уровне ручек, по всему корпусу, нанесен арочный орнамент, состоящий из четырех пар.

Дугообразные арки предположительно можно интерпретировать в качестве серпа или воды, волны, а насечки как показатель ведение учета. На фрагменте следующего сосуда налепным методом изображены рога животного, подобный орнамент представлен и на очажной подставке. Многие археологи склонны к тому, что данный мотив орнамента характеризует животноводство и культ быка (4, с. 135). Это подтверждает фрагмент, где изображена лошадь. Отметим и два орнамента в виде подковы и незамкнутого овала. Орнаменты в виде полумесяца и круга, видимо, означают небесные светила, отражая религиозные представления древних людей (табл. I, рис. 2-8).

В крупных сосудах могли хранить зерно, молоко, то есть они имели чисто хозяйственное значение. Отличительной чертой орнамента этого типа сосудов – кувшинов является то, что этот орнамент, в основном, исполнен налепным методом (1, с. 35).

Появление больших сосудов для хранения сыпучих продуктов и жидкостей является важным показателем сложившегося оседло- земледельческого уклада жизни. Забота о длительном хранении пищевых продуктов становится важнейшей чертой быта.

В отдельную группу мы выделили котлы. Орнамент на котлах очень разнообразен. По форме котлы имеют биконическую форму, вздутый в средней части корпус, небольшое узкое дно и как правило ребристый уступ в верхней части сосуда.

У котлов более позднего периода корпус обмазан жидкой глиной, он отделяется от горла уступом. На уступ нанесен налепной поясок или короткая лента с защипами, насечками или точечными вдавлениями. Данный орнамент встречается очень часто и повсеместно (2, рис. 44- № 64,67; 3,с. 188). Отдельные ручки также имеют форму декора – держатели роговидной формы.

Отдельные котлы имеют более сложный орнамент, да и качество посуды более высокое, поверхность их тщательно залощена. Одни из них в средней части имеют параллельный поясок. Над пояском нанесены косые линии (влево и вправо). Под пояском нанесен орнамент – парные дугообразные линии.

Другой фрагмент котла отличается тем, что сосуд разделен на четыре части парными поясками, проходящими по всему корпусу. Над верхней линией нанесены длинные, косые, парные линии, а над ниж-

ней линией по три пары наклонные друг к другу линии, а также глубокие точечные вдавления (табл.II, рис. 3,4).

Один из котлов на корпусе имеет зигзагообразные линии, которые сверху и снизу ограничены врезными поясами. В результате раскопок в Моллабурхантепе в 2013 г. здесь был найден фрагмент котла, который орнаментирован колосом пшеницы или ячменя. Этот орнамент еще раз подтверждает, что основным видом хозяйства в данной зоне являлось земледелие. Отдельные котлы орнаментированы фестонами из гроздей винограда.

Миски с внутренним бортиком – это одна из характерных видов керамики эпохи ранней бронзы Северо – Восточного Азербайджана и всего Восточного Кавказа (3, с. 187). Орнамент у этой посуды встречается крайне редко. На одном из фрагментов миски с внешней стороны нанесен врезной орнамент – четыре параллельно горизонтальных линий, затем четыре ломанных линий, затем вновь параллельные линии. Подобный орнамент (ломанные параллельные линии) зафиксирован на наскальных изображениях Гобустана. Отдельные ручки орнаментированы врезными, ломанными линиями, образующими остроугольники. Две ручки имеют форму из трех ребристых уступов.

Отличительной чертой орнамента кубков являются шишкообразные налепы с двух сторон. Иногда эти налепы слева и справа имеют «глазки» - точечные вдавления или обрамлены дугообразными арками. Из этой группы выделяются «двухэтажный» кубок с двумя парными волнистыми линиями и кубок с семью ломанными линиями.

Возвращаясь к орнаментированным ручкам, отметим спиральный орнамент, нанесенный по всей ручке и петлевидную ручку, оканчивающуюся сердцевидным налепом (табл. II, рис. 6).

«Визитной карточкой» керамики Северо – Восточного Азербайджана являются вазы (фруктовницы) на колоколовидном поддоне. Исходя из раскопок, вазы на высокой ножке мы датируем III тыс. до н.э. Вазы другого типа относятся к более древнему периоду. Все вазы на ножке богато орнаментированы. Орнамент врезной и наносился только на ножку и поддон. На поддоне, как правило, имеются два круглых отверстия. Отдельные ножки имеют две, три, пять ступеней. Многие ножки опоясаны от шести до двенадцати поясами, волнистыми, ломанными или дугообразными линиями, точечными вдавлениями (табл. II, рис.8; табл.III, рис.3).

Орнамент на «курильницах» идентичен орнаментам на вазах – это врезные, параллельные и волнистые линии (табл. III, рис. 4).

Орнамент на кости представлен на двух предметах. Это рисунок сетки на иголке и врезные круги с точкой посередине на предмете в виде крючка (табл. III, рис. 6,7).

Для совершения религиозных обрядов строили специальные культовые помещения. Стена культового помещения изнутри была украшена оттисками лентовидной формы шириной 10 см, длиной от 0,5 м до 1,5 м. В верхней северной части стены находился оттиск круглой формы диаметром 5 см с выступающим из него шипом.

Суммируя мотивы орнамента, можно с уверенностью отметить, что они отражали духовную культуру, хозяйственную жизнь и окружающую природу племен Кура – Араксской культуры.

## ЛИТЕРАТУРА

1. Мусаев Д.Л. Серкертепе – поселение эпохи ранней бронзы. Баку, 2006.
2. Кушнарева К. Х., Чубинишвили Т. И. Древние культуры Южного Кавказа (V – III тыс. до н.э.). Ленинград, 1970.
3. Мунчаев Р.М. Кавказ на заре бронзового века. Москва, 1975.
4. Исмаилзаде Г. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, 2008.

## ŞİMAL-ŞƏRQİ AZƏRBAYCANDA KÜR-ARAZ MƏDƏNİYYƏTİNİN NAXIŞ MOTİVLƏRİ

**Döyüş Musayev**

**Xülasə**

**Açar sözlər: Kür-Araz mədəniyyəti, ornament, saxsı qablar.**

Kür-Araz mədəniyyətində naxış motivləri təsərrüfat həyatını və təbiəti əks etdirən mənəvi əhəmiyyət daşıyırdı. Naxışların əksər hissəsi keramikada və yalnız cüzi hissəsi sümükdə, daşda və tikililərin daxilində təsvir edilmişdir.

Ornamentlərlə bəzəmə üsulları yapma, basma, cızma və ya qarışıq olur.

Naxış motivi çox halda qabların tipindən asılı olurdu. Belə ki, iri qabların üzərində naxışlar buynuz, halqa, aypara şəklində çəkilmişdir. Bu qrupda nöqtəli batıqlar və saçaqlı, üç pilləli piramida şəklində naxış seçilir. Bəzi qabların üzərində "göz", sünbül, qırıq xəttlərdən ibarət naxışlar vardır, xüsusilə də, meyvə qablarının ayaqcıqları naxışla "bəzədilmişdir".

Sərkərtəpə yaşayış məskənindəki ayin otağının divarı daxildən zolaq (lent) formalı basma naxışla bəzədilmişdir.

Naxış motivləri haqqında fikirləri yekunlaşdıraraq demək olar ki, onlar mənəvi mədəniyyəti, təsərrüfat həyatını və ətraf təbiəti əks etdirmişlər.

## ORNAMENT MOTIFS OF KURA–ARAXES CULTURE OF NORTHEAST AZERBAIJAN

**Doyush Musayev**

### Summary

**Keywords: Kura–Araxes culture, ornament, pottery.**

The article is dedicated to ornament motifs of Kura–Araxes culture reflected the nature and economical life of northeast Azerbaijan. The majority of ornaments are made on ceramics and only few of them were imaged on bones, stones and inside the constructions as well. The ornament reflected not only nature, economical life and agriculture but also the spiritual life.

# Таблица I




1



2




3




4




5




6




7




8

# Таблица II




1




2




3




4




5



6




7




8

# Таблица III



1



2



3



4



5



6

# STRABON "AYNİANA"SININ AXTARIŞINDA

**Təvəkkül Əliyev**
(AMEA Arxeologiya və Etnoqrafiya Institutu)
**tavakkul55@yahoo.com**

**Açar sözlər: Albaniya şəhərləri, Strabon, Uti vilayəti, Ayniana, Qalatəpə şəhər məskəni, nekropol.**

Əhəməni, daha sonra Makedoniyalı İsgəndərin imperiyasının süqutundan sonra Azərbaycanın şimalında təşəkkül tapan Albaniya dövlətinin ərazisi Kür çayının həm sol, həm də sağ sahilində geniş əraziləri – Araz çayı ilə Dağıstanın cənubu arasındakı torpaqları əhatə edirdi. Mənbələrdə qonşu ölkələrə – İberiya, Ermənistan və Atropatenaya nisbətən Albaniya ərazisinin daha sıx məskunlaşdığı, burada daha çox şəhər və digər yaşayış məskənlərinin olduğu göstərilir. Təkcə son 60 ildə Azərbaycanda, eləcə də qonşu Dağıstan ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində alban tayfalarına məxsus onlarla yaşayış məskəni və qəbiristanlıq aşkar edilərək öyrənilmişdir. Qəbələ, Şamaxı, Mingəçevir, Mil-Qarabağ bölgəsində Qaratəpə və Təzəkənd, Ağsu-İsmayıllı rayonlarında Mollaisaqlı, Nüydü və b. belə abidələrdəndir. Albaniyanın sosial, iqtisadi və mədəni həyatının ayrı-ayrı sahələrini işıqlandıran ona yaxın dəyərli monoqrafiya (K.V.Trever, C.Ə.Xəlilov, İ.A.Babayev, F.C.Məmmədova, F.L.Osmanov, A.B.Nuriyev və b.-nın əsərləri), yüzlərlə məqalə yazılmışdır. Bununla belə, Albaniya tarixində hələ də həllini gözləyən problemlər var. Məsələn, antik müəlliflərin adını çəkdiyi otuza yaxın alban şəhərinin böyük əksəriyyətinin yeri müəyyənləşdirilməmiş qalır. Buna görə də, Azərbaycanda antik dövrə aid hər hansı bir şəhər yerinin aşkar olunub tədqiqata cəlb edilməsi elmi ictimaiyyətin marağına səbəb olur. Son illər diqqət çəkən belə abidələrdən biri də Qalatəpə adlı antik və orta əsr şəhər yeridir.

Qalatəpə Ağcabədi rayonunun Salmanbəyli kəndi yaxınlığında, Qarqarçayla qədim Gavurarxın kəsişdiyi strateji əhəmiyyətli təbii yüksəkliyin üzərində yerləşir. Təpənin şimal tərəfdən hündürlüyü 20 metrə çatır. Azərbaycan ərazisində qədim suvarma sistemlərindən biri olan Gavurarx burada Qarqarçayla kəsişir. Yuxarı və aşağı hissədən ibarət olan şəhər məskəninin ümumi sahəsi 26 hektara yaxındır. Bu ərazi antik və erkən orta əsrlərdə Qafqaz Albaniyasının Uti (Vitiya) vilayətinə daxil idi. Strabon "Coğrafiya" əsərində bu vilayətdə yerləşmiş iki şəhərin adını çəkir: Ayniana (yaxud Enian)

və Anariaka. O, yazır: "...aynianlar Utiyada hasarlı şəhər salmışlar, o şəhərin adı Aynianadır, deyirlər, burada yunan silahı, mis qablar və qəbirlər göstərirlər; burada Anariaka şəhəri də vardır, o şəhərdə, deyirlər, yatanların qeybdən xəbər verən məbədini göstərirlər" (Strabo, XI, 7). Bu sözlərdən sonra Strabon e.ə. 283-282 -ci illərdə Xəzər dənizinin tədqiqi üzrə ilk ekspedisiya təşkil etmiş Selevki sərkərdəsi Patrokla istinad edir (6, s.24). Buradan isə belə qənaətə gəlmək olar ki, Ayniana – Enian ən azı hələ e.ə. III əsrin başlanğıcında bir şəhər kimi mövcud idi.

Enian haqqında bəhs edən R.S.Məlikov bu şəhərin xan və ya xanxani adlı alban tayfaları tərəfindən inşa olunması ehtimalını irəli sürür (11, s.124-125). K.V.Trever isə yazır ki, Enian əslində Xanxan adlanmış və bu şəhər əvvəllər Albaniyanın Uti, sonralar isə Paytakaran vilayətinin tərkibində olmuşdur (14, s.143). Mənbələri təhlil edən Z.İ.Yampolski Enianı qədim Azərbaycan şəhəri kimi səciyyələndirmiş və gələcək arxeoloji tədqiqatlar zamanı bu yaşayış məskəninin yerinin tapılmasının zəruriliyini bildirmişdir.

IX-X əsr ərəb müəlliflərinin (Kufi, İstəxri, İbn Hövqəl, Müqəddəsi) əsərlərində Ayniana – Enian şəhər adına yeni formada – "Yunan" şəklində rast gəlinir (1, s. 91, 114, 136). Monqol işğalı ərəfəsində Azərbaycanda olan və buradakı yaşayış məntəqələrinin adlarını sadalayan Yaqut əl-Həməvi qeyd edir ki, Yunan Bərdənin yeddi fərsəxliyində olan bir yerdir və ondan Beyləqana qədər də yeddi fərsəx məsafə vardır (9, VIII, 531). Bəhs etdiyimiz Qalatəpə şəhər məskəni də məhz bu koordinatlara uyğun gəlir.

Şuşa realnı məktəbinin müəllimi E.Resler hələ 1897-ci ildə Qalatəpə ətrafında ilk kəşfiyyat işləri aparmış, Gavurarxın yatağında küp qəbirləri aşkara çıxarmışdır (8). 1927-ci ildə Ə.K.Ələkbərov küp qəbirlərini öyrənmək məqsədilə Qalatəpə şəhər xarabalığı yaxınlığında bir neçə qəbir açmışdır (5). XX əsrin ortalarında orta əsr Beyləqan şəhər xarabalığında – Örənqalada tədqiqat aparan alimlər (A.İessen, İ.Cəfərzadə və b.) Yunan şəhəri və onun lokalizəsilə bağlı müxtəlif fikirlər söyləmişlər. Q.M.Əhmədov isə Qalatəpənin Mil düzündə az-çox şəhər xarabalığına bənzəyən yaşayış yeri olduğunu vurğulamış, onun Enian adlı şəhərin qalıqları olması haqda mülahizə yürütmüşdür (3, s.15). 1974-cü ildə isə F.L.Osmanov Qalatəpədə yoxlama şurfu qoymuş, burada dulus kürəsinin izlərinə və erkən orta əsr saxsı məmulatına rast gəlmişdir (13, s.23-27).

Qalatəpənin qədim və orta əsrlərdə mövcud olan və mənbələrdə müxtəlif adlarla tanınan şəhərin qalığı olub-olmadığını aydınlaşdırmaq üçün məqsədyönlü arxeoloji qazıntıların aparılması zərurəti çoxdan yaransa da,

Поселение занимает доминирующую над Дербентским проходом вершину отрога Джалганского хребта, спускающегося своим восточным склоном к Прикаспийской равнине. С севера оно ограничено крутыми, обрывистыми склонами, с востока и юга – относительно пологими склонами. В 440-х гг. в правление шаханшаха Йездигерда II (438-457) на северной оконечности поселения была сооружена цитадель площадью около 3 га, возведенная из сырцовых кирпичей на каменном цоколе ( см.: Кудрявцев, 1978. С. 243-257; 1979. С. 31-43; Гаджиев, 1989. С. 61-76; 2013. С. 122-147). Судя по материалам археологических исследований, древнее поселение занимало территорию будущей каменной цитадели Нарын-кала, повторившей очертания цитадели V в., и примыкающую к ней с юга территорию на общей площади около 6-7 га. Датировка поселения укладывается в рамки I-VI (VII) вв. н.э. (поздний албано-сарматский и сасанидский периоды). Отложения этого времени зафиксированы на территории цитадели VI в. повсеместно, где раскопы были доведены до материка – раскопы II, IV, XI , XII, XIII, XXIII, а за пределами цитадели – в раскопах III, VII, XIV, XV, XVI, XVII, XIX и в стратиграфических шурфах 10 и 11 (рис. 1).

Исследования на раскопе XXV, заложенном в 2012 г., ставят целью не только получить новые материалы по материальной и духовной культуре, архитектуре, хозяйству и быту обитателей древнего поселения Дербента, но и уточнить стратиграфию и хронологию этого поселения.

В результате работ на раскопе XXV (рис. 2), расположенном в 93 м к ЮВ от южной угловой башни цитадели Нарын-кала, были выявлены пять культурных напластований общей мощностью до 3 м и связанные с ними архитектурные и бытовые остатки, датируемые в диапазоне от I-II в в. н.э. до VI в. включительно. Культурный слой поселения потревожен впущенными в него средневековыми мусульманскими погребениями (погр. 1-16), объединенными в целом единым погребальным обрядом, характеризующимся захоронением умерших в простой удлиненной грунтовой яме вытянуто на спине, головой на ЮЗ, с повернутым на юг черепом.

С верхним слоем (слой 1), нарушенным современными пахотой и лесопосадками, связана хозяйственная яма 3, выделяющаяся устроенным в ней каменным ящиком для хозяйственных нужд и датирующаяся по происходящему из нее керамическому комплексу V-VI вв. С нижележащим слоем 2 связаны остатки стены, глинобитного пола, база колонны, представляющая собой прямоугольный плинт (размерами 50-51 х 49-50 х 20 см) с установленным на нем полукруглым торусом (d = 40-42 см, толщиной 13-14 см), очаг открытого типа, скопления керамических сосудов (рис. 3, 1-5).

С началом отложения слоя 2 и завершением отложения слоя 3 стратиграфически связана хозяйственная яма 2, в которой наряду с многочисленными обломками керамической посуды, найдены предметы печного припаса, представленные керамическим штырем (диаметром ок. 2 см) (рис. 4, 10) и обломками двух кубовидных (со стороной 7-8,7 см) керамических изделий со сквозным отверстием (d = ок. 2 см) и прокаленной и частично оплавленной одной стороной ( рис. 3, 6, 7).

Со временем отложения слоя 3 связаны остатки трех помещений, пяти хозяйственных ям и гончарная печь. Помимо представительной керамической коллекции и серии индивидуальных находок в ямах были найдены железная крица (яма 1), сасанидский кувшин (яма 6 – рис. 4, 9), фрагменты кубовидного изделия с отверстием, аналогичного найденным в яме 2 (рис. 3, 6, 7), 20 абразивов из пористого зернистого песчаника (яма 5 – рис. 4, 1-8), представляющие собой подпрямоугольного сечения (3-4х4-4,5 см) бруски длиной 9,5-13 см из пористого песчаника с одной рабочей гранью. Последние находки представляют предметы кузнечного производства, предназначавшиеся для шлифовки железных изделий. 12 подобных абразивов ранее были найдены в Дербенте в хозяйственной яме 17 на раскопе XIV, где был исследован так называемый «дом кузнеца», датируемый периодом от первых веков н.э. до сер. III в. н.э. ( в комплекс были впущены погребения второй пол. III – нач. IV в. н.э.) (Кудрявцев, 1987. Л. 27-28. Рис. 73, 1-12, 75; Гаджиев, 2002. С. 125). Обращает внимание, что в обоих случаях бруски-абразивы обнаружены в хозяйственных ямах, причем в большом количестве.

Выявленная печь для обжига керамики (рис. 5, 6), от которой сохранились предтопочная (загрузочная) яма и топочная камера, представляла собой удлиненную яму с закругленными углами, длиной 3,0 м,




Рис. 2. Дербентское поселение. Раскоп XXV. Общий план.

шириной 0,74-0,82 м и глубиной 0,86-0,96 м. Боковые стенки топочной камеры были обложены прокаленными сырцовыми кирпичами (разме-

ром 40-42х40-42х10-12 см), которые соответствуют по размерам сырцовым кирпичам, использовавшимся, в частности, при сооружении сасанидских укреплений Дербента, городища Торпах-кала сер. V в., Гильгильчайской стены нач. VI в. Печь имела 6 вертикальных каналов-продухов, расположенных друг против друга по 3 с каждой продольной стороны топочной камеры и которые поднимались от дна камеры и в верхней ее части наклонно выходили на древнюю дневную поверхность. Верхняя часть заполнения печи представляла собой сплошной слой печины и обломков обожженных сырцовых кирпичей от рухнувшего перекрытия и свода. В этом слое были найдены фрагменты прокаленной саманной крышки (d = ок. 55 см), которая, вероятно, использовалась для прикрытия отверстия в коробовом своде обжигательной камеры. Придонная часть заполнения печи представляла собой слой золы и древесного угля толщиной 20-30 см. В заполнении печи были найдены фрагменты керамической посуды (рис. 5Б, 1-20), среди которой




Рис. 3. Дербентское поселение. Раскоп XXV. Горшки (1–5) из скоплений керамики и керамические предметы печного припаса (6, 7) из хозяйственной ямы 2.

выделяются показательные обломки сасанидской керамики (рис. 5Б, 3, 10, 12, 16), ручки кувшинов (рис. 5Б, 17-19), которые, судя по характеру их оснований, «откололись» от сосудов во время обжига, и фрагменты необожженной белоглиняной чаши (рис. 5Б, 20).




Рис. 4. Дербентское поселение. Раскоп XXV. Индивидуальные находки: каменные абразивы (1-8), сасанидский кувшин (9), керамические штыри (10-13), зооморфная статуэтка (14), каменный оселок (15), костяные иглы (16, 17), бронзовые кольцо (18), браслет (19), подвеска (20).



A




Б

Рис. 5. Дербентское поселение. Раскоп XXV. А – остатки печи для обжига керамики, Б – фрагменты керамической посуды из топочной камеры и загрузочной ямы.




Рис. 6. Дербентское поселение. Раскоп XXV. Печь для обжига керамических изделий: А – план, Б-Е – разрезы.

Данная конструктивно и технологически развитая печь, датируемая V-VI вв. и находящая определенные аналоги, в частности, среди гончарных печей Мингечаура VI-VII вв. (Ионе, 1948. С. 170-171; 1949. С. 42-54; 1953. С. 31-79), отражает влияние Сасанидского Ирана на местное гончарное производство, что ранее отмечалось нами на основе изучения продукции гончарного ремесла Дербента и Южного Дагестана (Гаджиев, 1984. С. 47-72).

Керамический комплекс трех верхних слоев характеризуется сочетанием различных диагностирующих, хронологически показательных технико-технологических и стилистических групп столовой, тарной и кухонной керамики, характерной в целом для IV-VI вв. (столовая красно- и коричневоглиняная лощеная каннелюрованная, бежевоглиняная и розовоглиняная красноангобированная керамика, красноглиняная гладкостенная керамика, в т.ч. кувшины-ойнохои с пуговичными налепами-«глазками», сасанидская столовая и тарная посуда и др.).

Со слоем 4 связаны остатки трех стен и трех хозяйственных ям. В комплексе керамики этого слоя отсутствует сасанидская посуда, большее представительство имеет серо- и коричневоглиняная керамика с наружной лощеной черной или серой поверхностью, типичная для албано-сарматского периода. Это позволяет, учитывая стратиграфическую позицию слоя и хронологию вышележащих слоев, предварительно датировать его III-IV вв. Предматериковый слой 5, слабо насыщенный культурными остатками и который пока вскрыт на небольшом по площади участке, предварительно датирован первыми вв. н.э.

В ходе работ на раскопе XXV получен богатый археологический материал, представленный фрагментами керамической посуды, изделиями из керамики (пряслица, зооморфная статуэтка – рис. 4, 14), кости (иглы, проколки – рис. 4, 16, 17), бронзы (браслеты, кольцо, подвеска, фибула и др. – рис. 4, 18-20), железа (гвоздевидные и ножевидные предметы), камня (пряслица, оселки, жернова, зернотерки и др.), стекла (бусы, фрагменты сосудов), зафиксированы следы гончарного, кузнечного и металлургического (железоделательного) производств. Полученные материалы характеризуют культуру и быт населения Дербентского поселения, идентифицируемого с известным по письменным источникам V-X вв. (Бузанд, Егишэ, Парпеци, Агатангелос, Хоренаци, Ширакаци, Каланкатуаци, Цуртавели, Прокопий Кесарийский, Михаил Сириец, Табари, Хордадбех и др. ) городом, укреплением Чор – пред-

шественником Дербента (об идентификации Чора и Дербента см.: Кузнецов, 1893. С. 423; Артамонов, 1962. С. 120-121; Кудрявцев, 2000. С. 38-45; Гаджиев, 2001. С. 166-167; 2002. С. 10, 45-48) – который выступал важным военно-стратегическим, административно-политическим и религиозным центром Восточного Кавказа. В месте с тем, полученные археологические материалы подтверждают отсутствие на территории Дербентского поселения слоев, относящихся к последним векам до н.э. и более ранним периодам (предскифскому, скифскому), и фиксируют непрерывное и преемственное развитие поселения с первых веков н.э. до VI в. включительно.

**ЛИТЕРАТУРА**

1. Артамонов М.И. История хазар. Ленинград, 1962.. Изд-во Гос. Эрмитажа, 524 с.
2. Гаджиев М.С.. Столовая керамика Южного Дагестана рубежа албанского и раннесредневекового времени // Древние промыслы, ремесло и торговля в Дагестане. Махачкала, 1984. с. 47-72.
3. Гаджиев М.С. Исследования сырцовой фортификации цитадели Дербента сасанидского времени (по материалам раскопов Р–XI и Р–XIII) // Древняя и средневековая архитектура Дагестана. Махачкала, 1989. с. 61-76.
4. Гаджиев М.С. Миссия епископа Исраела и вопросы исторической географии Кавказской Албании // Северный Кавказ: историко-археологические очерки и заметки. Материалы и исследования по археологии России. № 3, Москва, 2001, с. 162-170.
5. Гаджиев М.С. 2002. Древний город Дагестана: Опыт историко-топографического и социально-экономического анализа. Москва, Восточная литература, 320 с.
6. Гаджиев М.С. Раскопки в цитадели Дербента в 2011 г. // Вестник Института истории, археологии и этнографии. № 1. Махачкала, 2013. с. 122-147.
7. Ионе Г.И. Об обжигательных печах Мингечаура // Вестник древней истории, 1948. № 3. с. 170-171.
8. Ионе Г.И. Гончарные печи древнего Мингечаура // Краткие сообщения Института истории материальной культуры АН СССР. Вып. 24. Москва, 1949. с. 42-54.
9. Ионе Г.И. О гончарных обжигательных печах Мингечаура // Материальная культура Азербайджана. Т. 3. Баку, 1953. с. 31-79.
10. Кудрявцев А.А. О датировке первых сасанидских укреплений в Дербенте // СА, 1978. № 3. с. 243-257.
11. Кудрявцев А.А. «Длинные стены» на Восточном Кавказе // ВИ,1979. № 11, с. 31-43.

12. Кудрявцев А.А. Отчет о работе Дербентской археологической экспедиции в 1987 г. // Архив ИИАЭ ДНЦ РАН. Ф. 3. Оп. 3. Д. 670.
13. Кудрявцев А.А. К отождествлению раннесредневековых городов Чора и Дербента // Историко-археологический альманах. Вып. 6. Армавир – Москва, 2000. с. 38-45.

## DƏRBƏND YAŞAYIŞ YERİNDƏ YENİ TƏDQİQATLAR
## (qısa məlumat)

**Murtuzəli Hacıyev**

### Xülasə

**Açar sözlər: Dərbənd, Çor, son sarmat dövrü, sasani dövrü, dulus kürəsi.**

Məqalə şahənşah I Xosrov Nuşirəvanın zamanında, 568-569-cu illərdə daşdan inşa edilmiş Dərbənd müdafiə kompleksindən əvvələ - e. I minilliyinin birinci yarısı - ortalarına aid edilən Dərbənd yaşayış yerində 2012-2013-cü illərdə aparılmış qazıntı işlərinin nəticələrinə həsr olunmuşdur. Əldə edilmiş materiallar qədim erməni, gürcü, erkən Bizans və ərəb müəlliflərinə məlum olan, Şərqi Qafqazın mühüm hərbi-strateji, inzibati-siyasi və dini mərkəzi kimi çıxış edən Çor/Çol qala-şəhəri ilə eyniləşdirilən Dərbənd yaşayış yerinin əhalisinin mədəniyyətini və məişətini xarakterizə edir.

## NEW RESEARCH ON THE DERBENT SETTLEMENT
## (brief information)

**Murtuzali Hajiyev**

### Summary

**Keywords: Derbent, Chor, Late Sarmatian period, Sasanian period, potter's furnace.**

The article focuses on the results of the excavations carried out in 2012-2013 on the Derbent settlement that dates from the 1-st half - the mid. of the 1-st mil. AD and preceded the stone Derbent defensive complex built in 568-569 AD during the reign of shahanshah Khosrow I Anushirwan. The resulting materials characterize culture and life of the inhabitants of Derbent settlement which is identified with the city-fortress of Chor/Chol known for ancient Armenian, Georgian, Syrian, Early Byzantine and Arab authors and which was the important administrative, strategic and religious center of East Caucasus.

# QƏDİM SAMEXİYANIN (KAMEXİYANIN) KƏŞFİ

**Mübariz Xəlilov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
**xalilov_az@yahoo.com**

**Açar sözlər: Xınıslı, alban, şəhər yeri, nekropol, arxeoloji qazıntılar, icmal.**

Şamaxının yazılı mənbələrdə qeydə alınmış qədim şəhərlərdən hər hansı biri ilə eyniləşdirilməsi istiqamətində ilk cəhdlər hələ XVII əsrdə Avropa alimləri tərəfindən edilmişdir. Almaniyanın Leyptsiq Universitetinin məzunu, magistr Adam Oleariyin verdiyi məlumata görə, qədim yunan coğrafiyaçısı Klavdiy Ptolemeyin (II əsr) «Coğrafi təlimnamə» əsərinin şərhçiləri, xüsusilə də, Magin güman edirdi ki, həmin əsərdə xatırlanan qədim Kiropol şəhəri Şamaxıdır (13, s. 288). Adam Oleariy yazırdı: «Şamaxı Kiropol kimi dənizə yaxın deyil, düz getdikdə, ondan iki günlük məsafədə yerləşir. Buradan görünür ki, qədim müəlliflər bu yer və çaylar haqqında yazarkən ciddi səhvə yol vermişlər» (13, s. 288). Fransız müəllifi D'Anvil (XVIII əsr) ilk dəfə olaraq Şamaxını Ptolemeyin adını çəkdiyi Samexiya (Kamexiya) alban yaşayış məntəqəsi ilə eyniləşdirmişdir (13, s. 473). İndiki Şamaxı şəhərinin kənarında, Xınıslı kəndi yaxınlığında aparılmış arxeoloji tədqiqatlar sonuncu fikrin həqiqətə daha yaxın olduğunu təsdiq etdi (2; 3; 14; 16; 21).

Xınıslı abidəsi 1939-cu ildən etibarən elmə məlum olmuşdur. Həmin ildə Y.A.Paxomov burada dağılmış bir qəbri və onun avadanlığını tədqiq etmişdir (baxın: 14, s. 209).

1946-cı ildə təsərrüfat işləri nəticəsində abidənin yerləşdiyi ərazidən qırılmış baş hissəsi nəzərə alınmadan hündürlüyü 2,26 m, yəni təbii insan boyundan uca olan, daşdan yonulmuş monumental insan heykəli tapılmışdır ( 20; 22).

1958-ci ilin yanvar ayında şumlama işlərinin gedişində abidənin tutduğu sahədə bir sıra maddi-mədəniyyət nümunələri, o cümlədən, 2 saxsı küpənin içərisində antik gümüş sikkələrdən ibarət dəfinə üzə çıxarılmış, Şamaxı rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru S.Ə.Nəcəfovanın verdiyi məlumat əsasında tapıntı yerinə gələn Azərbaycan Tarixi Muzeyinin əməkdaşları təqribən 335 sikkə əldə edə bilmiş, dəfinənin bir hissəsini isə yerli əhalidən toplamaq mümkün olmamışdır (12, s. 9-21).

Təsadüfi tapıntılar Xınıslı abidəsinin zənginliyindən xəbər verirdi. Bunu nəzərə alan Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutu 1958-ci ilin fevralında öz elmi işçiləri R.M.Vahidov və İ.H.Nərimanovu Şamaxıya göndərir. Ezamiyyətdən qayıdan arxeoloqların məlumatı əsasında abidədə kəşfiyyat qazıntı işləri aparmaq qərara alınır. Tarix İnstitutunun S.M.Qazıyev, C.Ə.Xəlilov və C.N.Rüstəmovdan ibarət dəstəsi 1958-ci ilin fevral-mart aylarında, 10 gün ərzində yerüstü materialları toplamaqla yanaşı kiçik ölçülü sahədə qazıntı işləri də aparmışdır. Kəşfiyyat qazıntı sahəsində 2 küp qəbri də üzə çıxarılaraq tədqiq edilmişdir.



Xınıslı. Torpaq qəbri.

Bu kəşfiyyat işlərindən sonra 60 hektardan çox sahəni əhatə edən Xınıslı abidəsində uzun müddətli, stasionar qazıntıların aparılmasının zəruriliyinə heç bir şübhə yeri qalmadı. Tarix İnstitutunun C.Ə.Xəlilovun rəhbərliyi altında təşkil etdiyi Xınıslı arxeoloji ekspedisiyası 23 may 1958-ci il tarixindən etibarən çöl-tədqiqat işlərinə başladı. Beləliklə, 2013-cü ildə ekspedisiyanın fəaliyyətə başlamasının 55 ili tamam olmuşdur. 1971-1972-ci illərdə həmin ekspedisiya Şirvan ekspedisiyası, 1972-ci ildən sonra Şamaxı ekspedisiyası adlanmışdır.

Xınıslı ekspedisiyası 1958-ci ildə 2 sahədə arxeoloji qazıntı işləri aparmışdır. Xınıslının I qazıntı sahəsində (300 m$^2$) tədqiqatlar həmin ildə başa çatdırılmış, yaşayış yerinin qalıqları ilə yanaşı 6 quyu qəbri, 1 küp qəbri (№ 3), 1 daş qutu qəbri olmaqla ümumilikdə 8 qəbir üzə çıxarılmışdır.

1958-1965-ci illərdə II qazıntı sahəsində (900 m$^2$) tədqiqat işləri aparılmış, Xınıslı yaşayış yerinin stratiqrafiyasını müəyyənləşdirmək, 195 qəbir aşkar edərək xronologiyasını dəqiqləşdirmək mümkün olmuşdur. Bunlar 58 küp qəbri (№ 4-61), 9 quyu qəbri (№ 7-15), 62 torpaq qəbri, 66 daş qutu

qəbrindən (№ 2-67) ibarətdir. Bundan başqa 1965-ci ildə ilk tunc dövrünə aid 1 daş sərdabə qəbri açılaraq öyrənilmişdir. 35 və 36 saylı küp qəbirləri ayrı-ayrılıqda nömrələnsə də, müvafiq hesabatda eyni bir qəbir kimi təsvir edilmişlər. Həqiqətən də, qəbir küplərinin hər ikisi eyni kvadratda, eyni dərinlikdə, yan-yana qeydə alınmış, onların avadanlığını bir-birindən ayırmaq mümkün olmamışdır. Küplərdən birində böyük, digərində uşaq dəfn edilmişdir. Güman etmək olar ki, bu əslində bir qəbirdir, başqa sözlə desək, iki dəfn küpü üçün bir qəbir kamerası qazılmışdır. Belə bir mülahizə özünü doğruldacağı halda 1958-1965-ci illərdə II qazıntı sahəsində 58 deyil, 57 küp qəbrinin aşkar edildiyini təsdiq etmək mümkündür.

1965-1968-ci illərdə Xınıslı abidəsində III qazıntı sahəsi (300 m$^2$) tədqiq edilmişdir. Yaşayış yerində qazıntılarla eyni zamanda 12 küp qəbri (№ 62-69, 72-74), 3 quyu qəbri (№ 16-18), 13 torpaq qəbri (№ 63-75), 3 daş qutu qəbri (№ 68-70) və beləliklə, cəmi 31 qəbir üzə çıxarılmışdır. 1968-ci ildə, III qazıntı sahəsində 67 və 67a nömrələri altında qeydə alınmış küp qəbirlərinin, yuxarıda göstərdiyimiz 35 və 36 saylı küp qəbirləri kimi, vahid bir qəbir olması zənn edilə bilər. C.Ə.Xəlilovun bu qəbirləri ardıcıl olaraq 67 və 68 nömrələri ilə deyil, 67 və 67a nömrələri altında qeydiyyata alması, ola bilsin ki, onun da belə düşündüyünə bir işarədir. 67 və 67a saylı hər iki dəfn küpünün eyni kvadratda, eyni dərinlikdə yerləşməsi, 35 və 36 saylı küplərdə olduğu kimi bu küplərin də birində böyük, digərində uşaq dəfn edilməsi, bəlkə də, irəli sürülmüş fikrin həqiqətə yaxınlığının göstəriciləridir.

1967-1968-ci illərdə kəşfiyyat xarakterli IV qazıntı sahəsi (75 m$^2$) öyrənilmiş, bu sahənin ilk orta əsrlərə aid olduğu müəyyənləşdirilmişdir. 1967-ci ildə həmçinin Xınıslı abidəsindən şimal-şərqdə, Pirdirəki dağının ətəyində yoxlama işləri görülmüş, burada ilk orta əsrlərə aid nazik mədəni təbəqənin olduğu və həmin təbəqənin bilavasitə ilk tunc dövrünə aid mədəni qatın üzərində yerləşdiyi müəyyən edilmişdir.



Xınıslı. Torpaq daşınması üçün texnikadan istifadə edilməsi.

1968-ci ildə V qazıntı sahəsində (300 m²) arxeoloji tədqiqatlara başlanılmışdır. 1969-1970-ci illərdə Xınıslı abidəsində qazıntı işlərində müvəqqəti fasilə olmuşdur. 1971-ci ildə V sahədə bərpa edilən qazıntılar 1972-ci ildə kiçik həcmli işlə başa çatdırılmışdır. V qazıntı sahəsində 9 küp qəbri (№ 70-71, 75-81), 8 torpaq qəbri (№ 76-83), 3 quyu qəbri (№ 19-21), 3 daş qutu qəbri (№ 71-73) olmaqla cəmi 23 qəbir açılaraq öyrənilmişdir.

1972-1974-cü illərdə VI qazıntı sahəsində (150 m²) tədqiqatlar aparılmış, yaşayış yerinin öyrənilməsi ilə eyni vaxtda 2 torpaq qəbri (№ 84-85) aşkar edilmişdir.


Xınıslı. Polşa arxeoloqu Mariya Dekovnya.

Beləliklə, Xınıslı abidəsində stasionar tədqiqatlara qədər (1958-ci ilədək) kəşfiyyat xarakterli qazıntı işlərini nəzərə almasaq, burada 1958-1968, 1971-1974-cü illərdə ümumilikdə 2025 m² sahə qazılaraq tədqiq edilmişdir. Mədəni təbəqələrin ümumi qalınlığının bir sıra yerlərdə 5 metrə yaxın olması abidənin daha geniş miqyasda öyrənilməsi işini çətinləşdirmişdir. Xınıslıda antik və ilk orta əsrlərə aid 261 və ya 260 qəbir (35 və 36 saylı küp qəbirləri bir qəbir kimi qəbul edilərsə) üzə çıxarılaraq tədqiq edilmişdir. Bunlar 21 quyu qəbri, 85 torpaq qəbri, 81 və ya 80 küp qəbri, 73 daş qutu qəbri (19) və 1 erkən tunc dövrünə aid daş sərdabədən ibarətdir. Bunu qeyd etmək yerinə düşər ki, erkən tunc dövrünə və erkən orta əsrlərə aid daş qutu qəbirləri, habelə antik quyu qəbirləri Azərbaycanda ilk dəfə məhz Xınıslıda aşkar edilərək öyrənilmişdir. Xınıslıda antik küp qəbirlərlə yanaşı III-V əsrlərə aid küp qəbirlərinin üzə çıxarılması Albaniyada küp qəbirlərinin xronologiyasına düzəliş edilməklə nəticələndi (baxın: 5, s. 32-34). Alban və ümumiyyətlə, Azərbaycan küp qəbirlərinin xronoloji çərçivəsinin yuxarı həddi V əsrə çatdırıldı. Yaşayış yerinin tədqiqi nəticəsində məlum oldu ki, abidənin alt təbəqəsi ilk tunc dövrünün Kür-Araz arxeoloji mədəniyyətinə

aiddir. E.ə. III minillikdə Xınıslıda yaşayış yeri mövcud olmuşdur. Çox uzun sürən fasilədən sonra e.ə. IV əsrdə burada həyat bərpa olunaraq geniş yaşayış məskəni salınmış və o nisbətən qısa müddət ərzində böyük bir alban şəhərinə çevrilmişdir. Bu şəhər ilk orta əsrlərdə tənəzzül prosesinə məruz qalmışdır.

Xınıslı ekspedisiyası abidədə arxeoloji qazıntıların gedişində Azərbaycan arxeologiyasında ilk dəfə olaraq elektriklə işləyən, torpağın qazıntı sahəsindən kənara daşınmasına xidmət edən transportyor tipli xüsusi qurğudan istifadə etmişdi.

Ekspedisiya Xınıslı abidəsinin və əldə edilmiş arxeoloji materialların tədqiqi prosesinə xarici mütəxəssislərin cəlb edilməsi istiqamətində də müəyyən uğurlar qazanmışdı. Azərbaycan tərəfinin dəvəti ilə 1964-cü ildə Xınıslıya gələn Polşa arxeoloqu Mariya Dekovna çöl-tədqiqat işlərində yaxından iştirak etmişdir. Xınıslıda aşkar edilən antik və ilk orta əsrlərə aid bəzi arxeoloji materiallar (inv. № 290, 385, 404 və s.) arxeomaqnit üslubu tətbiq etməklə xronologiyalarının dəqiqləşdirilməsi üçün Rusiyaya, prof. S.P.Burlatskayanın laboratoriyasına göndərilmiş və alınmış nəticələr «Советская археология» jurnalında çap edilmişdi (10; 11). Sasanilər sülaləsindən olan İran şahənşahlarından birinin ov səhnəsini əks etdirən qızıl suyuna çəkilmiş gümüş cam 12 oktyabr 1970-ci il tarixində bağlanmış xüsusi müqavilə əsasında Moskva Dövlət Tarix Muzeyinin mütəxəssisi V.N.Darkeviç tərəfindən bərpa olunmuşdu.



Xınıslı. Antik dövrə aid tunc qadın təsviri.



Xınıslı. Qızıl suyuna çəkilmiş gümüş nimçə, III-IV əsrlər.

Xınıslı abidəsinin beynəlxalq səviyyədə təbliği sahəsində də geniş addımlar atılmışdı. 1970-ci ildə Moskvada, məşhur Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində nümayiş etdirilmiş arxeoloji eksponatlar arasında Xınıslı materiallarına əhəmiyyətli yer ayrılmışdı. Xınıslıda aparılmış arxeoloji qazıntılar haqqında bir sıra beynəlxalq elmi forumlarda xüsusi məruzələr edilməklə xarici alimlər məlumatlandırılmışdır. Belə elmi məclislər arasında 1976-cı ildə keçirilmiş Antikşünasların XIV Beynəlxalq «Eyrene» konfransı və həmin konfransda C.Ə.Xəlilovun «Şamaxı antik dövrdə» adlı məruzəsi ilə çıxışı xüsusi qeyd edilə bilər. Bundan başqa Xınıslı abidəsi haqqında ekspedisiyanın rəisi C.Ə.Xəlilovun yazdığı elmi məqalələr Moskvada nəşr olunan «Советская археология», «Вестник древней истории», Almaniyada nəşr olunan «Das Altertum» kimi nüfuzlu jurnallarda çap edilmişdir (14; 15; 21).

Xınıslıda aparılmış arxeoloji qazıntı işlərinin 1968-ci ildə rejissor və operator Q.M.Cəfərov tərəfindən çəkilmiş «Qədim Şamaxı» elmi-kütləvi televiziya filmində əks olunması abidənin geniş tamaşaçı auditoriyasında tanıdılması işində mühüm əhəmiyyət kəsb etdi.

Xınıslı abidəsinin arxeoloji tədqiqi nəticəsində təkcə rəsmi qeydə alınaraq götürülmüş arxeoloji materialların ümumi sayı 3500-ə yaxındır. Bunların arasında qədim Roma məhsulu olan, qartal fiqurunu əks etdirən qızıl örtüklü sancaq, hun polixrom sənət nümunəsi olan, qiymətli daşlarla bəzədilmiş, qızıl örtüklü diadema, monumental daş heykəltəraşlığı nümunələri, antropomorf, zoomorf təsvirli digər metal, daş, keramika məmulatı və başqa tapıntılar diqqəti daha çox cəlb edir (1; 4; 6; 7; 8; 9; 17; 18). Hal-hazırda Xınıslı arxeoloji materialları Bakıda Azərbaycan Tarixi Muzeyində, İçərişəhər Tarixi-Memarlıq Qoruğunda, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeologiya və Etnoqrafiya Muzeyində və Arxeoloji Fondunda, Şamaxı Tarix-Diyarşünaslıq Muzeyində qorunub saxlanılır və nümayiş etdirilir.

Xınıslı abidəsində aparılmış arxeoloji qazıntı işlərinin əsas, ən mühüm nəticəsi isə Şamaxının Klavdiy Ptolemeyin Samexiya (Kamexiya) adı altında xatırladığı qədim alban şəhəri ilə eyniliyinin və beləliklə, Şirvanın bu möhtəşəm şəhərinin 2400 il bundan əvvəl salınmasının müəyyənləşdirilməsi olmuşdur.

## ƏDƏBİYYAT

1.Xəlilov C.Ə. Xınıslı daş heykəlləri // Azərbaycan SSR EA Məruzələri, XVI cild, № 11, 1960.

2.Xəlilov C.Ə. Xınıslı qədim yaşayış yeri // Azərbaycan SSR EA Xəbərləri, ictimai elmlər seriyası, № 3, 1961.
3.Xəlilov C.Ə. Xınıslıda arxeoloji qazıntıların ilk nəticələri haqqında / Azərbaycanın maddi mədəniyyəti, VI cild. Bakı, 1965.
4.Xəlilov C.Ə. Maraqlı incəsənət abidəsi / Azərbaycanın maddi mədəniyyəti, VII cild. Bakı, 1973.
5.Xəlilov M.C. Albaniyanın qəbir abidələri (IV-X əsrlər). Bakı, 2009.
6.Nuriyev A.B. Xınıslıdan tapılan şüşə piyalə // Azərbaycan SSR EA Məruzələri, XVIII cild, № 4, 1962.
7.Nuriyev A.B. Qədim Şamaxıda şüşə istehsalına dair / Azərbaycanın maddi mədə-niyyəti, VI cild. Bakı, 1965.
8.Orucov A.Ş. Xınıslının ilk orta əsr gil qablarının naxışlanması üsulları // Azər-baycan Dövlət Universitetinin Elmi Əsərləri, tarix və fəlsəfə elmləri seriyası, № 8, 1967.
9.Orucov A.Ş. Xınıslıdan tapılmış antropomorf gil fiqur haqqında // Azərbaycan SSR EA Məruzələri, XXVII cild, № 5, 1971.
10.Бурлацкая С.П. О датировании археологических объектов археомагнит-ным методом // Советская археология, № 3, 1962.
11.Бурлацкая С.П. Датирование археологических объектов археомагнитным методом // Советская археология, № 4, 1963.
12.Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа, выпуск IX. Баку, 1966.
13.Путешественники об Азербайджане, том I. Баку, 1961.
14.Халилов Дж.А. Раскопки на городище Хыныслы, памятнике древней Кавказской Албании // Советская археология, № 1, 1962.
15.Халилов Дж.А. Серебряное блюдо с позолотой из древней Шемахи // Вестник древней истории, № 3, 1976.
16.Халилов Дж.А. Шемаха античной эпохи / Проблемы античной истории и культуры, II. Ереван, 1979.
17.Халилов Дж.А. Шемахинское серебряное блюдо. Баку, 1985.
18.Халилов М.Дж. Монументальная каменная скульптура древней Шемахи / Тезисы докладов II Всесоюзного Симпозиума по проблемам эллинисти-ческой культуры на Востоке. Ереван, 1984.
19.Халилов М.Дж. Раннесредневековые каменные ящики Хыныслы / Мате-риалы Международной Научной конференции «Кавказ: археология и этнология». Баку, 2009.
20.Ямпольский З.И. О статуе, найденной на территории Кавказской Албании / Краткие сообщения Института Истории материальной культуры, вып. 60. Москва, 1955.
21.Chalilov D.A. Das alte Schemacha im Lichte der archäologischen Ausgrabun-gen // Das Altertum Heft 1. 1978. Bd. 24.
22.Jampolski S.I. Sine un gebiet des kaukasischen Albanien gefundene statue / Bibliotaeca classia orientalis. Berlin, 1959.

## THE DISCOVERY OF ANCIENT SAMEKHIA (KAMEKHIA)

**Mubariz Khalilov**

### Summary

**Keywords: Khynisli, Albanian, settlement, necropol, archaeological diggings, survey.**

One of the significant archaeological monuments of Caucasus Albania - Khynisli, identified with antique Samekhia (Kamekhia) of the ancient Greek author Claudius Ptolemy (II AD) is researched in this article. The author investigates issues of scientific approbation and the gitation of monument as well as in chronological order brings into accord the statistical date about reconnoitering and stationary investigations, excavated lots and various burials. The participation of foreign experts in the research of Khynisli is also pointed out by the author.

## ОТКРЫТИЕ ДРЕВНЕЙ САМЕХИИ (КАМЕХИИ)

**Мубариз Дж. Халилов**

### Резюме

**Ключевые слова: Хыныслы, албанское, городище, некрополь, археологические раскопки, обзор.**

Статья посвящена одному из наиболее значимых археологических памятников Кавказской Албании, отождествляемому с античной Самехией (Камехией) древнегреческого автора Клавдия Птолемея (II в.н.э.). Автор в хронологической последовательности приводит статистические данные о разведовательных и стационарных исследованиях, о раскопанных участках, различных погребениях. В статье отмечается участие некоторых иностранных специалистов в исследовании Хыныслы и его материалов. Объектами исследования являются также вопросы научной апробации, пропаганды памятника и т.д.

# ŞAMAXI ŞƏHƏRİNİN CÜMƏ MƏSCİDİ HAQQINDA

**Nailə Ciddi**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)
**naila.djiddi@yandex.ru**

**Açar sözlər: din, müqəddəslər, memarlıq, şəriət, məscid.**

Respublikamız müstəqillik yoluna qədəm qoyandan sonra yurdumuzun ayrı – ayrı bölgələrinin tarixi, adət - ənənəsi, folkloru, etnoqrafiyası, toponimləri, tarixi memarlıq abidələri, o cümlədən, məscidlər bu günün gözü ilə tədqiqata cəlb edilməkdədir. 1991-ci ildən sonra bu sahədə xeyli əməli işlər görülmüş, yeni tədqiqat əsərləri yazılmışdır. Öncül dünya ədəbi qaynaqlarına söykənərək daha çox milli dəyərlər süzgəcindən keçirilən həmin tədqiqatlar isə bütövlükdə Azərbaycanın mənəvi dəyərlərinin yenidən öyrənilməsi deməkdir. Vətənimizin qədim tarixə malik tarixi-etnoqrafik bölgələrindən biri də Şirvandır. Min ilə yaxın tarix səhnəsində olan Şirvanşahlar dövləti, əsasən, bu ərazidə yerləşmiş, qədim Şamaxı şəhəri isə onun paytaxtı olmuşdur. Tarixin müxtəlif mərhələlərində Şirvanşahlar dövləti daha böyük əraziləri özündə birləşdirmişdir. Məsələn, mənbələrin birində qeyd olunur ki, Şirvanşahlar dövləti Kür çayı ilə Şabran, Xəzər dənizi ilə Qəbələ arasındakı ərazini əhatə etmişdir (1, s. 549). A. Bakıxanov özünün "Gülüstani – İrəm" əsərində XIX yüzillikdə Şirvana daxil olan regionları belə müəyyənləşdirib: "...indiki Şirvan məmləkəti Səlyan, Şəki, Bakı, Quba, Dərbənd, Tabarsaran, Kürə, Samur nahiyəsi və İlisunun aşağı bir qismindən ibarətdir" (2, s.13).

Hal-hazırda isə Şirvan regionu Qobustan, Şamaxı, İsmayıllı, Ağsu, Göyçay, Ağdaş, Zərdab, Ucar, Kürdəmir, Hacıqabul rayonlarını və Şirvan şəhərini özündə birləşdirir. Qədim tarixə malik poeziya, elm, sənət, maarif və dini mərkəzlərdən biri olan bu diyar, demək olar ki, indiyədək konfessional baxımdan geniş elmi tədqiqata cəlb edilməmişdir. Halbuki, tarixin şahidi olan bu regionun hər daşı, hər qalası, hər bir övliyası ulu keçmişimizdən günümüzə soraq verən bir kitabədir. Belə tarixi kitabələri özündə əks etdirən qədim memarlıq abidələrimizdən biri də Şamaxı şəhərinin Cümə məscididir. Bu qədim memarlıq abidəsi nəinki Cənubi Qafqazın tarixində öndə dayanan tikilidir, həmçinin islam tarixi memarlığının qədimliyinin göstəricisidir. Şamaxı Cümə məscidi kompleksi memarlıq nöqteyi-nəzərindən XIX əsrə qədər inşa edilən tiklilərə aiddir. Şirvana və Dərbəndə aid yazılan müxtəlif tarixi tədqiqatlarda düzgün olaraq göstərilir ki, bu abidə tarixi – mədəni nöq-

teyi-nəzərdən Şamaxı şəhərinin spesifik memarlıq üslubunda tikilmiş abidəsidir. Bu da təbiidir, çünki ərəblər işğal etdikləri şəhərlərdə birinci növbədə məscid tikirdilər. Həmin tikilən məscidlərin mehrabı da Məkkə istiqamətində olurdu. Memarlıq baxımından tikilən bu məscidlərin əksəriyyəti ərəblərin formalaşdırdıqları inşaat sənəti əsasında həyata keçirilirdi. Ərəblər bu məscidləri inşa edərkən özləri ilə kənardan mütəxəssislər gətirmirdi. Onların verdikləri təkliflər əsasında yerli memarlardan istifadə olunurdu. Cümə məscidinin tikintisində də bunu görmək mümkündür. Bu baxımdan məlum olur ki, Şirvanda islama qədər müstəqil memarlıq məktəbi olmuşdur (3, s.108). Ehtimal edilir ki, məscid Şamaxı şəhərində yerləşən böyük ticarət mərkəzinin yanında tikilmişdir. Çünki məscidlərin tikintisi təkcə islam dininin təbliğatı məqsədilə həyata keçirilmirdi. Din xadimləri burada yığışaraq əhalinin bir sıra tale yüklü məsələlərini həll edirdilər. Digər tərəfdən məscid şəhərin mərkəzində olduğundan onun arxitekturası və bəzədilməsinə yerli memarlar xüsusi fikir vermişdilər. Etnoqrafik müşahidələr də bunu sübut edir.

Dövrümüzə qədər gəlib çatmış Cümə məscidi 1902 – ci ildə Yozef Ploşko və memar Zivər bəy Əhmədbəyovun (1873-1925) layihəsi ilə qədim məscidin özülü üzərində tikilmişdir. Mütəxəssislərin fikrincə, məscid nəinki VIII əsr İslam memarlığının qədim tarixi baxımından, həm də möhtəşəm plan üslubuna görə Qafqazın qədim dini tikililərindəndir. Mehrabı Kəbəyə istiqamətlənən məscidin günbəzi yerli təbii əhəng daşı ilə inşa olunmuşdur. Şəriət qanununa görə, qədim məscidlər yenisi ilə əvəz ediləndə mümkün qədər əvvəlki plana uyğun inşa edilməlidir. Bu baxımdan XX əsrin əvvəllərində qədim məscidin özülü üzərində inşa edilmiş Şamaxı Cümə məscidinin ilkin planını bərpa etmək mümkün olmuşdur. Uzunluğu 47 metr, eni 28 metrə çatan düzbucaqlı formalı məscidin nəhəng zalı kvadrat şəkilli üç sərbəst hissəyə bölünür. Bu hissələr bir – biri ilə aralarındakı geniş keçidlərlə əlaqələndirilmişdir. Məscidin belə plan həlli müəyyən dərəcədə məşhur ərəb məscidlərini – həmin dövrdə, yəni VIII əsrdə tikilmiş Dəməşqdəki Əməvi və Kordovadakı Böyük məscidi xatırladır. Belə plan quruluşuna malik olan məscidləri mərkəz xətti boyunca memarlıq və konstruksiyasına xələl gətirmədən hər iki istiqamətdə genişləndirmək olar (4, s .62). Ümumi plana görə, Şamaxı Cümə məscidi Dərbənd Cümə məscidi və Dağıstandakı XIII əsr Cümə məscidi ilə oxşarlıq təşkil edir. Digər tərəfdən məscid üç hissədən ibarət olmasına və daxili sahəsinə görə bir qədər XI – XII əsrlərdə Mərkəzi Asiyada tikilmiş “Namazqa” məscidini xatırladır. Bu oxşarlıqlar həm də onun nəticəsidir ki, müsəlman şərqində yaşayan xalqların bir-birilə sıx etno-

mədəni əlaqələri olmuşdur (3, s. 109).

Cümə məscidinin tikilməsi xəlifə Validin qardaşı Əbu Müslümün hakimiyyəti dövrünə təsadüf edir. O, Şirvan və Dağıstanı işğal etmiş, bu ölkələrdə islam dinini yaymışdır. 1902-ci il zəlzələsindən sonra çox böyük dağıntının səbəbini araşdırmaq üçün xüsusi komissiya iş apararkən, Tiflisdən gəlmiş geoloq, şahzadə Şahqulu Qacar ərəb yazıları tapmış və bunun əsasında təyin edilmişdir ki, Cümə məscidi hicri tarixi ilə 126-cı ildə, miladi tarixi ilə 743-cü ildə inşa edilmişdir. Cümə məscidi Qafqazda 733 – 734-cü illərdə tikilmiş Dərbənd məscidindən sonra ikinci qədim məsciddir.

Qədim məscidin planı və şəkli hələ tapılmayıb. Lakin rus rəssamı Q. Qaqarin 1847-ci ildə Cümə məscidinin naturadan şəklini çəkmişdir. 1859 – cu il zəlzələsindən sonra məscidin səliqəli kvartallar üzrə tikilməsində quberniya və şəhər arxitektoru Qasım bəy Hacıbababəyovun ( 1811 – 1874) xüsusi xidməti olub. O, 1858-ci ildə Şamaxı teatr binasını, 1870-ci ildə Şamaxı hamamını, Cümə məscidinin yanında iki minarəli Təzə məscidi tikdirmişdir. Təzə məscidin minarələri üzərindəki naxışlar Cümə məscidinin gümbəzinin və yaxud qübbəsinin üzərindəki təsvirləri xatırladır. Yazılı mənbələrdən aydın olur ki, Təzə məscid Hacı Məmmədrzanın ayırdığı maliyyə vəsaiti əsasında tikilmişdir. 1910-cu ildə Zivər bəy Əhmədbəyov İmanlı məscidini tikdirmişdir.

1903 – cü ilin oktyabrında Cümə məscidinin bərpası üçün ianə toplamaq məqsədilə komitə təşkil olundu. Zivər bəy Əhmədbəyovun hazırladığı layihə üzrə işə başlanıldı. Lakin komitə ilə Zivər bəy Əhmədbəyovun ara-



sında fikir ayrılığı əmələ gəldiyi üçün Zivər bəy tikintidən çıxıb getdi. Zivər bəy Əhmədbəyovunun inşaat prosesini tərk etməsinin səbəbi, fikrimizcə, onun tarixi məscidin bərpası üzrə təklifi ilə əlaqədar idi. Komitə üzvləri bu təklifin çox baha olduğunu, tağın, ərəb freskalarının, interyer bəzəklərinin yaradılmasının çətin başa gəldiyini bildirmişdilər. Təəssüflər olsun ki, komitə ikinci variantın üzərində dayanaraq, məscidin özülü üzərində yeni məscidin tikilməsinə qərar verdi. Komitə köhnə məscidin özülü üzərində yeni məscidin inşası üçün Yozef Ploşkoya müraciət etdi. 1909-cu ildə Yozef Ploşkoya Zivər bəy Əhmədbəyovun layihəsinə dəyişikliklər etməklə məscidin bərpasına başladı. Yozef Ploşkoya yeniliklərindən biri də bundan ibarət idi ki, məscidin inşasında lazım olan metal parçalar Varşavada düzəldilirdi. Bu da məscidin daxilinə xüsusi yaraşıq verirdi. Lakin Yozef Ploşkoya bərpasında Şərq mədəniyyətinin bir sıra xüsusiyyətləri öz əksini tapmadı. Həmin dördə, yəni 1903-cü ildə "Kaspi" qəzetinin Şamaxıda olan müxbiri yazırdı ki, hətta dağıdılmış məscid də özünə hörmət tələb edir, dağılmaqda olan divarlar tam uçmamışdır, onun dağıdılmış divarları üzərində başqa tikinti aparmaq düzgün olmazdı. Məscid yıxılsa da, onun yenidən bərpası üçün eyni daşdan istifadə etmək lazımdır. Bu baxımdan məşhur fransız memarı Oqüst Perrenin belə bir fikri yada düşür ki, memarlıq tikilisi dağılanda belə öz gözəlliyini qoruyub saxlayır. Bunu dağılmış Cümə məscidi haqqında da demək olar. Tezliklə dağılmış məscidin özülü üzərində yeni bir məscidin tikintisi planlaşdırılır (3, s. 115).

Qeyd edək ki, Zivər bəy Əhmədbəyov Şamaxı şəhərində müxtəlif binaların tikilməsi ilə yanaşı Bakıda da bir sıra tikililərin planını vermiş və tikdirmişdir. Onun müsəlman tikililərinin inşasında böyük təcrübəsi var idi. Məhz onun fikirləri əsasında komitə Cümə məscidini inşa edərkən, məscidin özülü üzərində tikintinin aparılmasına qərar vermişdi. Yozef Ploşkoya da Zivər bəyin planlaşdırdığı kimi tikintiyə başlamışdır. Məlum məsələ idi ki, Yozef Ploşkoya müxtəlif ornamentləri özündə əks etdirən Avropa tarixi üslubuna uyğun şəkildə bu məscidi bərpa edəcəkdi. Bu baxımdan o özü də Zivər bəyin planını bəyənmişdi. Eyni zamanda Yozef Ploşkoya Zivər bəy qədər müsəlman memarlığına bələd olmaması onun üçün başqa çıxış yolu qoymurdu. Bakıdakı Təzə - pir məscidini də 1905 – 1914 – cü illərdə Zivər bəy Əhmədbəyovun tikmişdir. Cümə məscidi birmənalı olaraq İslam memarlığı əsasında bərpa edilmişdir. Məscidin bərpası Şirvanşahlar sarayının memarlıq ansamblı ilə səsləşməklə yanaşı, əsas fasadın silueti də əsarərəngizliyi ilə eynilik mahiyyəti kəsb etmişdir. Əsas qapının, yəni portalın tağı

Böyük Moğollar dövründə yayılmış hind–müsəlman memarlığını xatırladır. Lakin bütövlükdə Cümə məscidi Şirvan – Abşeron memarlıq məktəbinin tərkib hissəsi kimi çıxış edir (3, s. 118). Məscidin 1902-ci ildə başlanılan tikintisini yekunlaşdırmaq mümkün olmadı. 1918-ci ildə ermənilərin vəhşilikləri nəticəsində məscid yandırıldı. Yaşlı informatorların verdikləri məlumata görə, ermənilər yerli əhalini, körpələri, anaları, yaşlı ağsaqqalları Cümə məscidinə toplayaraq yandırmışdılar. Bu zaman təxminən 1700 nəfərə yaxın günahsız insan qətlə yetirilmişdi. Etnoqrafik sorğular zamanı məlum oldu ki, hadisəni təsvir edən M. Əzizbəyov bu dəhşətli hadisəni ağlaya – ağlaya N. Nərimanova çatdırıb. O bildirib ki, Şamaxıdan uzaqlaşanadək yanmış cəsədlərin iyi hələ də burnumdan çəkilməmişdi. Məhz o zaman məscidin qədim inşaat yazıları tamamilə məhv edilmişdir. Sovet dövründə məlum səbəblərdən təyinatı üzrə istifadə olunmayan məscid tam dağılmaq təhlükəsi ilə üzləşmişdir.

1926-cı ildə Cəmil Aleksandroviç – Nasıfi Şamaxıdan 13 kilometr aralıda yerləşən qonşu Ağsu kəndində hələ 1918 -ci ildə ermənilər tərəfindən yandırılmış və dağıdılmış bir məscid xarabalığı aşkar etmişdir. Həmin məsciddə aparılmış tədqiqatlar göstərir ki, onun da memarlıq planı Şamaxı Cümə məscidi ilə eynidir. Bu məscidin də inşa tarixi VIII əsrdə Şirvanı və Dağıstanı fəth edərək İslamı yayan xəlifə Validin qardaşı Əbu Müslümün fəaliyyəti dövrünə təsadüf edir. Cəmil Aleksandroviç – Nasıfi məscid divarlarındakı müxtəlif hörgü qalıqlarına əsaslanaraq onun çox qədim olması və müxtəlif dövrlərdə bərpa edilməsi nəticəsinə gəlmişdir. Doğurdan da, Şamaxı və Ağsu məscidləri eyni dövrdə tikilib. Onlar Şirvan abidələri qrupuna daxil olub İslam memarlığının nadir nümunələrini təşkil edirlər. Bu məscid interyerlərinin analoqu yoxdur ( 4, s. 62).

Şamaxı Cümə məscidinin tikilməsində suriyalı memar Mudcmahidin də adı çəkilir. Hələ onun dövründə dördbucaqlı məscid 39 x 12,8 m ölçülərə malik olmuşdur. Daxili üç hissəyə bölünərək, hər birinin öz qapısı və mehrabı (pişnamaz) var imiş. Onu da qeyd edək ki, plan quruluşuna görə məscidin Yaxın Şərqdə analoqu yoxdur. Məscidin İslamın daha erkən vaxtına təsadüf etməsi, burada 1968 – ci ildə H.Ciddi tərəfindən arxeoloji qazıntılar aparılmasına rəvac vermişdir. Nəticədə məscidin həyətində iki mədəni təbəqə aşkarlanmışdır. Birincisi IX – X əsrləri, ikinci təbəqə isə XI – XII əsrləri əhatə edir. 1970–80-ci illərdə aparılan qazıntılar zamanı onun həyətində mədrəsə, xeyli hücrə və qəbirlər aşkarlanmışdır.

Son olaraq onu da qeyd etmək lazımdır ki, sözü gedən məscid bərpa-

dan sonra möhtəşəm görkəm almış və daha geniş miqyasda xalqın mənəvi dəyərlərinə xidmət etməkdədir.

## ƏDƏBİYYAT

1. ASE. X cild. Bakı, 1987.
2. Bakıxanov A. Gülüstani – İrəm. Bakı, 1951.
3.Фатуллаев Ш. С. Джума – мечеть в городе Шемахе ( VIII – XX вв.). ИАНА-Сер.лит., яз. и искусства, 1973, N1, с.108-121.
4. Şamaxı tarix – diyarşünaslıq muzeyi. Hazırlayan Fariz Xəlilli. Bakı, 2009.
5. Məşədixanım N. Azərbaycan pirləri. Bakı, 1992.
6. Qəniyev S. Şirvan folklor mühiti. Bakı, 1997.
7. Деминский О. Некоторые сведения о Кабристанском полицейском участке Шемахинского уезда Бакинской губернии/ Записки Кавказского Отдела РГО, в. 22, №2. Тифлис, 1901.

## JUMA MOSQUE OF SHAMAKHI

**Naila Ciddi**

**Summary**

**Key words: religion, seants, architecture, chariat, (Islamic low) mosque**

The article is about the ancient cultic architectural monument of the country. Architectural design and the construction history of the mosque, as well as its similarities and dissimilarities with the other monuments of the Islamic architecture had been described in this article.

It is obvious that, during the Soviet period the confessional situation was under critical condition. Most of the mosques had been destroyed and those, which were not ruined, had been used as household premises. Armenian constructors as usual had been engaged to the works of restoration for the mosques. While making restorations they have made huge mistakes, as a result of which, these mosques often lost their initial architectural appearances.

All the conditions had been organized for the construction, preservation and the restoration of the worship places during the years of independence.

## О ДЖУМА МЕЧЕТИ г. ШЕМАХА

**Наиля Джидди**

**Резюме**

**Ключевые слова: религия, святые, архитектура, шариат, мечеть.**

Статья посвящена одному из древних культовых архитектурных памятников страны. Описываются архитектурный стиль, история строительства

мечети, проводятся параллели между Джума мечетью и другими памятниками мусульманской архитектуры, рассматриваются их сходства и различия.

Как известно, в годы Советской власти конфессиональная ситуация находилась в тяжелом состоянии. Большинство мечетей было уничтожено, уцелевшие мечети использовались в качестве хозяйственных помещений. Реставрационными работами мечетей, как правило, занимались армянские строители, которые допускали грубые ошибки, в результате которых мечети часто теряли первоначальный архитектурный облик.

За годы независимости республики созданы все условия для строительства, охраны и реставрации культурных сооружений.